# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 44 (3510) Cümə axşamı / 7-13 dekabr 2023-cü il Qiymәti 40 qәpik


# Bakının sülh şərtləri

*Dekabrın 6-da ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu keçirilib. Tədbirdə 30 ölkəni təmsil edən 60 xarici ekspert iştirak edib. Dövlət başçısı Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqlarının detalları, Bakının Qərb institutları ilə əməkdaşlığı və digər məsələlər ətrafında ölkəmizin rəsmi mövqeyini açıqlayıb. Prezident İlham Əliyevin sözlərinə görə, biz suverenliyimizi iki il yarım bundan əvvəl bərpa edəndə gördük ki, Qarabağda böyük həcmdə çoxsaylı erməni kontingenti var və onlar heç bir beynəlxalq hüququn prinsiplərinə məhəl qoymurdular:*



"Biz ümid edirdik ki, bu məsələ öz həllini tapacaq. Biz dərk edirdik ki, bu, anormal vəziyyətdir və İkinci Qarabağ müharibəsi bitəndən sonra bizim mövqeyimiz aydın idi. Qarabağda yaşayan insanların iki seçimi var - onlar ya Azərbaycan vətəndaşları olurlar və onların bütün hüquqi çərçivələri yaradılır və ya yaşayış üçün digər yerləri seçirlər. Bunun başqa yolu yox idi".

## "Onlar, həmçinin psixoloji sarsıntı keçiriblər"

**Dövlət başçısı qayıdış məsələsindən də danışıb. Bildirib ki, biz də çalışırıq əlimizdən gələni edək ki, məcburi köçkünlər üçün maksimal həyat şəraiti yaradılsın, onlar buna layiqdirlər. Onlar, həmçinin psixoloji sarsıntı keçiriblər. Dövlətimizin başçısı minalar məsələsinə də toxunaraq deyib:**

"Biz istəyirik ki, proses mümkün qədər tez getsin. Lakin biz anlayırıq ki, ən yaxşı memarlıq təcrübəsinə əsaslanaraq, ən yaxşı texnologiyalardan irəli gələrək, yaşıl texnologiyaları tətbiq etməklə və həmçinin ən yaxşı şəraitləri yaratmaqla buna nail olmalıyıq". Dövlət başçısı qeyd edib ki biz keçmiş məcburi köçkünləri layiqli iş yerləri ilə təmin edə bilərik, şərait yarada bilərik: "Yeri gəlmişkən söyləyim ki, həmin sahələrdə məşğulluq məhz vacib məsələdir. Bir halda ki, biz qayıdış prosesini planlı həyata keçiririk və qayıtmış insanların əksər hissəsi artıq bu iş yerlərinə malikdir, bu onu göstərir ki, tətbiq edilmiş yanaşma tamamilə əhatəlidir".

## Bakının qırmızı xətti

**Prezident vaxtilə Qarabağdakı ermənilərlə təmasların qurulmasına dair çağırışlar etdiyini deyib: "Mən Laçına qayıtmış sakinlərlə görüşümdə qeyd etdim ki, bu məsələnin normal həlli yolu var və mən o zaman dedim, separatçıların liderləri təslim olsunlar, onlara qarşı amnistiya tətbiq edilə bilər.** Təəssüf olsun ki, yenə də mənim sözlərimə düzgün qiymət verilmədi. Bu gün separatçıların rəhbərləri Azərbaycandadırlar. Onlar buraya gəlmək istəyirdilər və bizi hədələyirdilər ki, tank üzərində gələcəklər Azərbaycana, Bakıya. Bu gün isə Azərbaycanda mühakimə olunmağı və bizim ədliyyə sisteminin yekun qərarını gözləyirlər".

Dövlətimizin başçısı deyib: "Ümid edirdik ki, biz Qarabağ ermənilərinin nümayəndələri ilə təmaslar qura biləcəyik. Təəssüflər olsun ki, orada hakimiyyəti bir növ inhisarçılığa götürmüş insanlar buna imkan vermədi. Bundan əlavə, sentyabr ayında iki hadisə baş verdi ki, bu, bizim üçün qırmızı xəttin keçməsi demək idi.

Birincisi, Ermənistan baş nazirinin dırnaqarası "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyi münasibətilə təbriki, bu, tamamilə Ermənistan baş nazirinin dediyi və imzaladığı sənədlə ziddiyyət təşkil edirdi. Çünki ötən ilin oktyabrında Ermənistan və onun baş naziri rəsmi olaraq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımışdı. Bundan sonra eyni ruhda olan çoxsaylı bəyanatlardan sonra separatçılara təbrik məktubunun göndərilməsi tamamilə qəbuledilməz idi bizim üçün və çox ziddiyyətli bir hərəkət idi".

## "Onlar təslim olan kimi əməliyyata son qoyuldu"

**Dövlət başçısının sözlərinə görə, bir gündən az sürən antiterror tədbirləri nəticəsində suverenliyimizi bərpa etdik. Tədbirlər nəticəsində mülki infrastruktur və dinc əhali arasında heç bir itki olmamışdır:**

"Biz dərhal bəyan etdik ki, erməni qoşunları silahı yerə qoyan kimi, biz əməliyyatı dayandıracağıq və onlara çıxmağa imkan verəcəyik. Əməliyyat 24 saatdan az sürdü və onlar təslim olan kimi əməliyyata son qoyuldu. Bu, sonuncu görüşümüzdən sonra baş verən ən mühüm hadisələrdir", - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident qeyd edib ki, bu gün biz bir neçə beynəlxalq çağırışla üzləşirik. Təəssüf olsun ki, biz tərəfdaş hesab etdiyimiz bəzi ölkələrlə müəyyən anlaşılmazlıq yaşayırıq:

"Biz öz mövqeyimizi onlara çatdırırıq və bütün ölkələrə qarşı beynəlxalq hüququn şamil olunmasının vacibliyini qeyd edirik. Bu, selektiv olmamalıdır, onun həyata keçirilməsi hamı üçün məcburidir. Azərbaycan bütün məsələləri BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə etməklə həll edib. Bu, Azərbaycanın suveren hüququ idi ki, öz ərazisinə tam şəkildə nəzarəti həyata keçirsin", - deyə dövlətimizin başçısı vurğulayıb.

## "Biz regiona sülhü artıq gətirmişik"

**"Biz regiona sülhü artıq gətirmişik. Biz onu müharibə yolu ilə etmişik. Məncə, buna daha geniş diqqət yetirilməlidir. Bu, təkcə Qafqazla bağlı deyil. Sülhə hərbi yolla necə nail olmaq olar, biz bunu nümayiş etdirdik", - Prezident İlham Əliyev deyib.**

İşğal dövründə Minsk qrupunun həmsədrlərindən münaqişənin hərbi yolunun olmaması ilə bağlı vahid mövqe eşitdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Biz sübut etdik ki, hər üç ölkə yanılırdı. Dövlətçilik tarixlərinə, beynəlxalq təcrübələrinə və onların BMT Təhlükəsizlik Şurasının üzvləri olmalarına baxmayaraq, onlar yanılırdılar. Bu, yanlış qiymətləndirmə idi. Azərbaycana müəyyən bir mesaj idi ki, siz hərbi yola əl atsanız buna müvəffəq olmayacaqsız. Lakin biz bunu sübut etdik ki, bu münaqişənin hərbi yolu var. Bu münaqişə 3 il bundan əvvəl həll edildi".

## Qarabağda erməni sakinləri üçün yaradılan şərait

**Prezident Qarabağda erməni sakinlər üçün yaradılan şəraitdən də söz açıb:**

"Onlar (erməni icmasının nümayəndələri - red.) yalnız 20 sentyabrdan sonra görüşməyə razılıq verdilər. Biz artıq suverenliyimizi bərpa etmək üçün güc tətbiq etmək fikrinə gəldikdə, onların nümayəndəsi Yevlaxa gəldi. Səh. 2

MÜSAHİB

## Gec-tez münaqişəli vəziyyətə son qoyulmalıdır



**Azər Badamov,**
Milli Məclisin deputatı

*Son zamanlar Qərb dairələrində Azərbaycana qarşı ikili standartların şahidi oluruq. Bu yanaşma rəsmi bəyanatlardan tutmuş müxtəlif mətbuat orqanlarında qərəzli materiallara qədər özünü göstərir. Təbii ki, məlum anti-Azərbaycan kampaniyasının arxasında erməni lobbisi dayanır. Məqsəd əldə edilən tarixi zəfərdən sonra Ermənistanın üzləşdiyi ağır fəsadların nəticələrini qismən də olsa neytrallaşdırmaqdır. "Həftə içi"nə müsahibə verən deputat Azər Badamov mühüm məqamlara diqqət çəkib.*

*Ermənilərin bundan sonra Qarabağ adından çıxış etməsinin heç bir nəticəsi olmayacaq*

Səh. 3

MÜSAHİB



**Ədalət Verdiyev,**
hərbi ekspert

■ Qarabağ ermənilərinin Ermənistana gəlməsi onlar tərəfindən zülmə məruz qalmış haylara qıcıq gətirir

■ Azərbaycan qalib tərəf olmasına rəğmən davamlı olaraq sülh təkliflərini təqdim edir

■ Qarabağdan köçmüş erməni kütləsinin İrəvanda Paşinyan hakimiyyətinə qarşı istifadəsi mümkündür

Səh. 5

GÜNÜN FOTOSU...



**Qəzzada evlərini tərk edərək məktəbə sığınan fələstinli uşaqlar**

GÜNÜN SİTATI

*"Azərbaycan Moskvada görüşə razılığını təsdiqləyib, Ermənistan isə yox"*



**Mariya Zaxarova,**
Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi

KARİKATURA



**Ermənistan hakimiyyətinin mövcud siyasəti**

## Separatçı "deputatlar"ın gizli toplantısı

**Qabil Hüseynli,**
politoloq

Revanşist qüvvələr, hakimiyyət nümayəndələri nəzərə çarpdırmadan "Qarabağ kartı"nı oynamaqda davam edirlər.

Səh. 3

STATİSTİKA



**■ Bu ilin yanvar-noyabr aylarında Azərbaycanın qeyri-neft məhsullarının ixracının dəyəri 3 033,68 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 10,5 faiz çoxdur.**

Tək noyabr ayında qeyri-neft məhsullarının ixracı 321,85 milyon ABŞ dolları təşkil edib ki, bu da əvvəlki ilin noyabr ayı ilə müqayisədə 6,2 faiz çoxdur. 2022-ci ildə Azərbaycanın qeyri-neft ixracı illik müqayisədə 12,3 faiz artaraq 3 047,67 milyon ABŞ dollarına bərabər olub.



Səh. 6

## Bu xəstəliyə iki dəfə yoluxmaq mümkün deyil

PREZİDENTİN İŞ GÜNÜ

## Qəbul



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynı qəbul edib. Görüşdə ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın ölkəmizə səfərinin ikitərəfli əlaqələrin müxtəlif aspektlərinin müzakirəsi və regional məsələlər ətrafında fikir mübadiləsinin aparılması baxımından əhəmiyyəti qeyd edildi.**

Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında münasibətlərin zəngin tarixinin olduğunu deyərək, ölkələrimizin Azərbaycanın müstəqilliyi illərində müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri qurduğunu, xüsusilə energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistanın öz öhdəliklərini yerinə yetirmədiyini, Azərbaycan ərazilərinə silah-sursat və hərbi qulluqçular göndərdiyini, separatizmi dəstəklədiyini qeyd edərək, Azərbaycanın antiterror tədbirlərini öz suveren ərazilərində keçirdiyini, təcavüzkar separatizmə son qoyduğunu və əməliyyatın keçirilməsi zamanı nümunəvi şəkildə beynəlxalq humanitar hüququn tələblərinə riayət etdiyini, mülki insanlara və infrastruktura hər hansı zərərin dəymədiyini diqqətə çatdırdı.

Ölkəmizin regional sülh gündəliyini dəstəklədiyini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, münaqişə başa çatandan və Azərbaycan suverenliyini tam şəkildə bərpa edəndən sonra sülhün bərqərar olunması üçün tarixi imkanlar yaranıb və ABŞ da yeni reallıqlar nəzərə alınaraq bu prosesə öz töhfəsini verə bilər. Prezident İlham Əliyev enerji sahəsində əməkdaşlığı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu və bərpaolunan enerji potensialının inkişafı istiqamətində Xəzərdə və Qara dənizdə həyata keçirilən layihələri qeyd etdi.

Dövlətimizin başçısı regionda Orta Dəhliz üzrə yeni nəqliyyat-logistika imkanlarının yarandığını, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə tərəfdaşlığının daha da genişləndiyini dedi və bu istiqamətdə yeni əməkdaşlıq imkanları barədə danışdı.

Ceyms O'Brayn öz növbəsində ABŞ ilə Azərbaycan arasında əlaqələrin dərin köklərə malik olduğunu və ölkələrimizin yaxşı tərəfdaşlar olduqlarını vurğuladı. O, Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılmasında ABŞ-ın roluna toxundu, ölkəsinin regionda sülh gündəliyini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasını, sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini dedi, bu xüsusda danışıqların Vaşinqtonda davam etdirilməsi üçün ABŞ-ın hazır olduğunu diqqətə çatdırdı.

Ceyms O'Brayn Trans-Xəzər nəqliyyat dəhlizi konsepsiyasının inkişafı, həmçinin Ermənistan ilə Azərbaycan arasında kommunikasiyaların açılması üzrə müzakirələrin davam etdirilməsinin ABŞ tərəfindən dəstəkləndiyini vurğuladı. O, ABŞ-Azərbaycan münasibətlərində gələcəyə baxışın vacibliyini bildirdi.

Görüşdə ikitərəfli münasibətlərin irəli aparılması üçün qarşılıqlı səfərlərin bərpa edilməsi müsbət addım kimi dəyərləndirildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Prezident qırğız həmkarını təbrik edib

***Dekabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarova zəng edib. Prezident İlham Əliyev Sadır Japarova ad günü münasibətilə səmimi təbriklərini və xoş arzularını çatdırıb, ona möhkəm cansağlığı və ali dövləti fəaliyyətində uğurlar arzulayıb.***

Qırğızıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Dövlətimizin başçısı Qırğızıstan Prezidenti ilə həm Azərbaycanda, həm də Qırğızıstanda keçirdiyi görüşləri məmnunluqla xatırlayıb, görüşlər zamanı aparılmış müzakirələrin qarşılıqlı etimada və dəstəyə əsaslanan dostluq və qardaşlıq münasibətlərimizin genişlənməsinə, strateji tərəfdaşlığımızın inkişafına mühüm təkan verdiyini qeyd edib.

Telefon danışığı əsnasında Azərbaycanın və Qırğızıstanın SPECA, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdikləri vurğulanıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Bakının sülh şərtləri

## Gündəm

əvvəli 1-ci səhifədə

Bir dəfə yox, iki dəfə gəldi. İndi sual verilir, nəyə görə əvvəllər gəlmirdi? Əgər əvvəllər gəlsəydilər, onda antiterror tədbirinə ehtiyac qalmazdı və bu, yaxın tarixdir". Dövlətimizin başçısı bildirib ki, indi Qarabağda elektron portal fəaliyyət göstərir. Artıq Qarabağ ermənilərinin bir neçəsindən müraciət qəbul olunub. Bəziləri qalmaq istəyirlər, orada yaşayırlar. "Biz Dövlət Miqrasiya Xidməti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən nümayəndələr ayırmışıq ki, onlar müvafiq şərait yaratsınlar. Onlar (erməni sakinlər - red.) ərzaqla təmin olunmalıdır, istilik təmin edilməlidir və yaşayış üçün digər şərait təmin edilməlidir. Mən demirəm ki, onların çoxu qalıb. Lakin qalmaq qərarı verən ermənilər artıq bu şəraitdən yararlanırlar", - deyə dövlətimizin başçısı əlavə edib.

### Azərbaycana qarantiya lazımdır

**Prezident İlham Əliyev sülh danışıqları ilə bağlı Azərbaycanın tələblərini də açıqlayıb. Onun sözlərinə görə, Ermənistanda hər hansı bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı Azərbaycana qəti şəkildə qarantiya lazımdır:** "Çünki biz bilirik Ermənistanda nə baş verir. Həmçinin bilirik ki, Ermənistanın bəzi Avropa paytaxtlarında çox "müşavirləri" var".

Dövlətimizin başçısı qeyd edib: "İstərdik ki, iki ölkə arasında, ümumiyyətlə, müharibə olmasın, bununla bağlı qarantiya olsun".

Dövlət başçısı vurğulayıb ki, bizim tərəfimizdən antiterror tədbirləri planlaşdırılmamışdı: "Ən azı 2020-ci ilin noyabrında belə bir şey yox idi, mən bunu çox aydın şəkildə deyə bilərəm".

İki ölkə arasında imzalanacaq sülh sazişinin beynəlxalq ekspertlər tərəfindən də lazımi şəkildə araşdırılmalı olduğunu deyən dövlətimizin başçısı əlavə edib: "Otuz ildən artıq işğalı, öz ərazisinin tamamilə dağıdılmasını, etnik təmizləməni və əziyyətləri görən ölkə olaraq biz beynəlxalq vasitəçilərə yox, məhz Ermənistana əl uzatdıq".

Sülh müqaviləsinin prinsiplərini tərtib edib Ermənistana göndərildiyini, lakin yenə də sükut olduğunu qeyd edən Prezident İlham Əliyev bildirib: "Sonra beş məlum prinsip açıqlandı. İndi görünür ki, Ermənistan bunları qəbul etməyə yaxındır. Onlar bunu baza kimi götürə bilərlər. Bunu bir neçə il əvvəl etsəydilər, əlbəttə ki, antiterror əməliyyatına ehtiyac qalmazdı. Bu tarixdir və onu göstərir ki, sülhü təşviq edən tərəf məhz Azərbaycan idi, Ermənistan deyil".

### "Ola bilər ki, cənab Borel yuxular görür"

**Prezidentin çıxışında ən mühüm məqamlardan biri də avropalı siyasətçilərin Azərbaycana qarşı qərəzli yanaşmaları ilə bağlı idi.**

"Hətta ermənilərin özləri etiraf edirlər ki, bu cür təcrübəli Avropa diplomatı (Cosep Borel - red.) yalan danışır. Deyirlər ki, Qarabağı 100 min insan tərk edib, 150 min deyil. Yəni, cənab Borel bu tərzdə davam etsə, bir aydan sonra 200 min adam deyəcək. Ola bilər ki, cənab Borel yuxular görür. Bu, tamamilə qəbuledilməzdir. Bu, təkcə rəqəmlərlə bağlı manipulyasiya deyil, bu, Azərbaycana qarşı ittihamlardır, bizim etmədiyimizlə bağlı ittihamdır", - Prezident İlham Əliyev deyib.

"Bizim Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat verdi. Çox təəccüblüdür ki, onun (Borel - red.) öz ölkəsi separatçılıqdan əziyyət çəkir. Belə bir şəxs separatçıları necə müdafiə edər? Bu, çox təəccüb doğurur", - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezidentin sözlərinə görə, təəssüflər olsun ki, Avropada liderlər arasında cənab Borel, madam Metsola kimi populist insanlar var: "Mən hər zaman açıq danışmağı xoşlayıram. Mən onların yürütdüyü siyasətlə və Azərbaycana olan münasibətləri ilə tamamilə razı deyiləm, narazıyam. Bu, ədalətsizdir və heç də Avropa İttifaqının maraqlarına uyğun deyil. Ancaq ümumilikdə Avropa Komissiyası haqqında danışanda, bizim çox gözəl münasibətlərimiz var. Biz buna böyük əhəmiyyət veririk, onlar



strateji əhəmiyyət daşıyır. Bu, təkcə enerji və qaz-neft sahəsini əhatə etmir. Tezliklə hidrogen sahəsində əməkdaşlıq edəcəyik. Bilirsiniz ki, Gürcüstan, Azərbaycan, Rumıniya və Macarıstanı bağlayan bir layihə olacaq. Yəni, oyun qaydalarında böyük dəyişiklik olacaq və bu, artıq icra prosesindədir".

### Azərbaycan Avropa İttifaqının üzvü olmağı hədəfləmir

**Prezident vurğulayıb ki, Azərbaycan xarici siyasət konsepsiyasında Avropa İttifaqının üzvü olmağı hədəfləmir: "Bu, çox praqmatik yanaşmadır, çünki bizi heç vaxt qəbul etməyəcəklər. Bunun səbəbi də bəllidir.**

Biz real dünyada yaşayırıq, virtual dünyada deyil. Yəni, Azərbaycanı oraya qəbul etməyəcəklərsə, biz nədən o qapını döyək və ev yiyəsini nəyə görə narahat edək? Eyni zamanda, özümüzü niyə bir növ biabır edək. Biz bunu hədəfləmirik, biz əməkdaşlıq qurmağın, əlaqələr qurmağın yolunu tapmışıq". Onun sözlərinə görə, Avropa İttifaqı ilə, Avropa Komissiyası ilə bizim

> *Azərbaycanı oraya qəbul etməyəcəklərsə, biz nədən o qapını döyək və ev yiyəsini nəyə görə narahat edək?*

çox yaxşı münasibətlərimiz var, sıx təmaslarımız var. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Bizim xarici ticarətimizin təqribən 50 faizi Avropa İttifaqı ilə aparılır.

Azərbaycanın Avropa İttifaqının doqquz üzvü ilə strateji tərəfdaşlığa dair bəyanatlar qəbul etdiyini xatırladan dövlətimizin başçısı deyib: "Bu da Avropa İttifaqının üçdəbiri deməkdir. Bu, onu nümayiş etdirir ki, milli səviyyədə və təsisatlar səviyyəsində bizim əlaqələrimiz çox yaxşıdır. Şəxsən mən və Azərbaycan Şarl Mişelin səylərini hər zaman dəstəkləmişik ki, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulsun. Onun tərəfindən Brüsseldə bir neçə görüş təşkil edilib. Biz indi mümkün yeni görüşü müzakirə edirik".

### "Avropa Parlamentində bəziləri özünü manyak kimi aparır"

**"Biz Avropa Komissiyası ilə, eyni zamanda, müxtəlif istiqamətlərdə fəaliyyət göstəririk, genişlənmə istiqamətində enerji əməkdaşlığı edirik.**

Avropa Komissiyasından xahiş qəbul etmişik ki, Avropaya qaz ixracı artırılsın, çünki orada sıxıntıları var. Biz bağlılıq haqqında danışırıq, ticarət müzakirə edirik, sərmayələri müzakirə edirik", - Prezident deyib.

Avropa Parlamentinin bir təsisat kimi buna maneə olduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Bu, bir növ məsuliyyətsiz insanlar qrupudur. Onların bəziləri özünü manyak kimi aparır. Onların anti-Azərbaycan hissləri və bəyanatları insanın normal psixoloji statusundan kənara çıxır. Mən maksimal dərəcədə diplomatik lüğətdən istifadə etmək istəyirəm. Biz nə edə bilərik? Onlar 10-dan çox anti-Azərbaycan qətnamə qəbul ediblər. Biri çox, biri az. Bu, bizim üçün elə bir vacib deyil. Biz buna təəssüf edirik. Sadəcə, onu bəyan edə bilərik ki, biz bunu Avropa İttifaqının üzvlərinin hamısına şamil etmirik". Avropa Parlamentində korrupsiya hallarına toxunan Prezident İlham Əliyev deyib ki, bu qurum ilkin olaraq öz korrupsiya məsələlərini həll etməlidir. Hər hansı digərlərini müəyyən bir günahda ittiham etmək əvəzinə, öz məsələləri ilə məşğul olmalıdır.

### Qranada görüşündən imtinanın səbəbləri

**Prezident İlham Əliyev Qranada nəzərdə tutulan görüşdə iştirakdan imtinasının səbəblərini də açıqlayıb.**

"Fransa Prezidenti (Emmanuel Makron - red), Şarl Mişel və Ermənistanın baş naziri ilə Praqa görüşünün keçirilməsi təklifi irəli sürüldü. Praqada keçirilən görüşü müsbət qiymətləndirirəm. Çünki o vaxt baş nazir Paşinyan Qarabağı Azərbaycanın hissəsi kimi tanıdı. Düzdür, o, sonra başqa bəyanatla çıxış etdi, öz fikrindən çəkindi. Həmin vaxt o, "Dağlıq Qarabağ"a təbrik məktubu göndərdi. Amma yenə də mən Praqa görüşünün nəticəsini müsbət kimi qəbul etdim", - Prezident İlham Əliyev bildirib. Ermənistan ilə Azərbaycan arasında aparılan sülh danışıqlarına toxunan dövlətimizin başçısı qeyd edib: "Danışıqlar bu formatda davam edirdi. Lakin sonradan nə baş verdi? Fransa Prezidenti televiziyaya verdiyi müsahibələrindən birində Azərbaycanın ünvanına müəmmalı və qəbuledilməz sözlərdən, ifadələrdən istifadə etdi və beləliklə, özünü prosesdən ayırdı. Çünki tam aydın idi ki, əgər siz neytrallığınızı itirirsinizsə, artıq vasitəçi ola bilməzsiniz, bu şansı əldən buraxırsınız. Ona görə neytral olmalısınız. Bununla bağlı müxtəlif səbəblər var idi. Bu halda artıq vasitəçi olmaq şansı əldən buraxıldı. Biz rəsmən bəyan etdik, artıq düzgün, yaxud münasib hesab etmirik ki, Fransanın hər hansı bir nümayəndəsi Ermənistanla Azərbaycan arasında normallaşma prosesində iştirak etsin. Buna görə, bu məxsusi səbəbə görə mən Qranadaya getmədim".

### Sülh müqaviləsinin detalları

**Dövlət başçısı sülh müqaviləsinin detallarına da toxunub. Bildirib ki, sülh prosesinin təşəbbüskarı biz olmuşuq: "İlkin mərhələdə Ermənistan tərəfinin səyləri var idi.**

Bu, həmin sülh müqaviləsi layihəsinə "Dağlıq Qaradağ respublikası"nı daxil etmək idi. Biz, əlbəttə ki, bunu rədd etdik. Onlar çalışırdılar ki, müxtəlif mətnlər, formatlar çərçivəsində bunu ("Dağlıq Qaradağ respublikası" - red.) oraya daxil etsinlər. Bizim isə münasibətimiz o idi ki, bu haqda danışa bilmərik, danışmamalıyıq və ərazi bütövlüyünün tanınması qarşılıqlı olmalıdır. Ona görə də biz deyirdik ki, Azərbaycanda erməni azlığı o mətnə daxil ediləcəksə, o zaman Ermənistandan didərgin salınmış azərbaycanlıların da məsələsi oraya daxil edilməlidir və onlar Ermənistana qayıtmalı, orada yaşamalıdırlar, onların hüquqları, təhlükəsizlikləri tam təmin olunmalıdır. Necə ki, Azərbaycanda erməni azlığının hüquqları təmin ediləcək. Təəssüf olsun ki, Ermənistan tərəfi bunu rədd etdi. Bu, məntiqsiz idi. Çünki biz qeyri-adi bir şey təklif etmirdik. Biz qarşılıqlı prinsipi təklif edirdik. Digər variant isə ümumiyyətlə, bu mövzuya toxunmamaq idi. Sentyabrın 19-da keçirilən antiterror tədbirlərindən sonra mənə elə gəlir ki, bu maneə aradan qalxıb. Biz hər iki azlığı sülh müqaviləsində təsbit edəcəyik və ya bunun haqqında ümumiyyətlə, danışmayacağıq". Prezident bildirib ki, biz artıq Azərbaycanın ərazi bütövlüyünün bəyanatlarla deyil, imza ilə təsdiqlənməsini gözləyirik.

"Ermənistanın ərazisini işğal etmək kimi bir hədəfimiz yoxdur", - deyən dövlətimizin başçısı vurğulayıb ki, bəzən əsassız olaraq bizi bunda ittiham edirlər. "Biz bunu etmək istəsəydik edərdik. Bunu açıq şəkildə bəyan edirəm. İstənilən nöqteyi-nəzərdən Azərbaycan üçün böyük problem deyil. Onlar bir gün ərzində öz silahlarını yerə qoydular və bizim bayrağımız Xankəndidə ucaldıldı. Biz bunu etmək istəmirik. Biz bunu etmiriksə, bu o deməkdir ki, mən bu məsələdə haqlıyam", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Dövlət başçısı qeyd edib ki, Fransa və Hindistan Ermənistanı silahlandırmaqla, necə deyərlər, tonqala yanacaq tökürlər və Ermənistanda qeyri-real fikir formalaşdırırlar: "Ermənistan fikirləşə bilər ki, həmin silahları istifadə etməklə yenidən Dağlıq Qarabağı işğal edə bilər. Mən hələ o silahların keyfiyyəti haqqında danışmıram. Ən müasir silahları olsa belə, bu, mümkün deyil. Çünki müharibənin nəticəsi insanlar və onların ruhu sayəsində həll edilir. Hətta İkinci Qarabağ müharibəsindən sonra Ermənistan özü bəyan etdi ki, müharibə zamanı onların 12 min dezertiri, fərarisi olub. Yəni, onlar Azərbaycan qarşısında tab gətirə bilməzlər". Prezidentin sözlərinə görə, ggər Ermənistan yaxşı qonşu olmaq və dəstək vermək bacarığını nümayiş etdirərsə, bu yolla öz suverenliyini qoruyub saxlaya bilər:

"Ermənistan hökuməti xaotik olaraq bir qütbdən digər qütbə gedir. Onlar hesab edirlər ki, bununla xilas olunacaqlar. Bu, belə deyil. Onlar, sadəcə, digər böyük qardaşı qazanacaqlar. Bu böyük qardaş əvvəlki qardaşdan yaxşı olacaq? Səmimi olaraq deyək ki, bu,

> *Hər bir kənd, hər bir sahə, məkan üzrə qiymətləndirmə işləri aparılır ki, qeyri-qanuni iqtisadi fəaliyyətin ekologiyaya vurduğu zərəri hesablayaq*

belə deyil. O uzaqdadır, bölgəyə o qədər də bağlı olan qardaş deyil və özünün siyasi, bəlkə də şəxsi ambisiyalarının, ideyalarının dalınca gedir. Ən azı Ermənistan öz tərəfindən iradəsini bildirməlidir. Bu, sülh üçün ilk şərtdir".

### İşğalın zərərləri hesablanır

**Prezident İlham Əliyev deyib ki, müxtəlif hüquq şirkətləri ilə çalışırıq ki, milli sərvətlərimizi talayan şirkətləri məsuliyyətə cəlb edək:**

"İşğaldan azad edilmiş ərazilərdə vəziyyət öyrənilir. Bununla bağlı xüsusi heyət çalışır. Orada müxtəlif dövlət orqanlarının nümayəndələri təmsil olunub. Hazırda monitorinqlər davam edir. Hər bir kənd, hər bir sahə, məkan üzrə qiymətləndirmə işləri aparılır ki, qeyri-qanuni iqtisadi fəaliyyətin ekologiyaya vurduğu zərəri hesablayaq", - deyən dövlətimizin başçısı xatırladıb ki, Kəlbəcər rayonunda 60 min hektara yaxın meşə qırılıb. Bu, bizim peyk vasitəsilə əldə etdiyimiz fotoşəkillərdə əks olunub. Həmçinin transsərhəd çayların çirklənməsi ilə bağlı narahatlıq var. Xüsusilə Zəngilan rayonundan keçən Oxçuçayın suyu artıq sarı rəngdədir. Bu da, sözün əsl mənasında, ekoloji fəlakətdir".

Dövlət başçısının sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdə mülkiyyətə dəymiş zərərlə bağlı hesablamalar aparırıq və qeyri-qanuni fəaliyyətin nəticələrini nəzərdən keçiririk:

"Nəinki separatçıların özləri, həmçinin müxtəlif ölkələrdəki erməni diasporunun nümayəndələri bu fəaliyyətlərlə məşğul olublar. Onlar ədalət mühakiməsi qarşısında cavab verməlidirlər", - deyə dövlətimizin başçısı qeyd edib.

# Gec-tez münaqişəli vəziyyətə son qoyulmalıdır

***Son zamanlar Qərb dairələrində Azərbaycana qarşı ikili standartların şahidi oluruq. Bu yanaşma rəsmi bəyanatlardan tutmuş müxtəlif mətbuat orqanlarında qərəzli materiallara qədər özünü göstərir. Təbii ki, məlum anti-Azərbaycan kampaniyasının arxasında erməni lobbisi dayanır. Məqsəd əldə edilən tarixi zəfərdən sonra Ermənistanın üzləşdiyi ağır fəsadların nəticələrini qismən də olsa neytrallaşdırmaqdır. "Həftə içi"nə müsahibə verən deputat Azər Badamov mühüm məqamlara diqqət çəkib.***



**Azər Badamov,**
Milli Məclisin deputatı

## Müsahib

***- Azərbaycanın sülhə təşəbbüslərini davam etdirdiyi bir vaxtda, Qarabağı ölkəmizin ərazisi kimi tanıdığını deyən Ermənistanda qondarma "Qarabag parlamenti" adı altında toplantılar keçirilir. Bunun məqsədi, siyasi nəticələri nə ola bilər?***

- Azərbaycan 19 sentyabr lokal antiterror tədbirləri ilə separatizmin kökünü kəsdi. O cümlədən, Xankəndidə formalaşmış qeyri-qanuni, separatçı qondarma qurum özünü buraxdığını elan edərək, buraxılma müddətini yanvarın 1-dək uzatdı. Təbii ki, separatçı qurum qeyri-qanuni olduğu üçün heç bir hüquqi anlamı, real əhəmiyyəti yoxdur. Bununla belə, erməni revanşist qruplar özünün çirkin niyyətlərini davam etdirmək üçün xaricdə, İrəvanda qondarma qurumlarını yaradıb, hüquqi olmayan fəaliyyətlərini davam etdirə bilərlər. Bunun dövlətimizə heç bir aidiyyəti yoxdur. Azərbaycan dövləti artıq ərazi bütövlüyünü təmin edib, bütün ərazilərində suverenliyini təmin edib və bundan sonra da öz ərazilərində separatçı qurumun, separatçılığın inkişafına imkan verməyəcəkdir.

Təbii ki, ermənilərin bundan sonra Qarabağ adından çıxış etməsinin heç bir nəticəsi olmayacaq. Qarabağ Azərbaycanın suveren ərazisidir və artıq özünün legitim orqanlarını yaradır. O cümlədən, dövlətimiz Qarabağda yaşamaq istəyən, vətəndaşlığımızı qəbul etmək istəyən ermənilərə də çağırış edib. Kim qayıdıb yaşamaq istəyərsə, yenə də qapımız açıqdır. Dövlət onlara Azərbaycan qanunları, Konstitusiyası ilə bütün imkanları yaradacaqdır. O



cümlədən, ermənilərin Azərbaycana qayıdışı məsələsi birtərəfli şəkildə həll oluna bilməz. Əgər ermənilər Azərbaycan vətəndaşlığını qəbul edib yaşamaq istədiklərini qəbul edərlərsə, azərbaycanlıların da Ermənistan vətəndaşlığını qəbul edərək öz ata yurdlarında yaşayışını davam etdirməsi hüquqla öz həlini tapmalıdır.

***- Elə bu günlər ABŞ-nin "Vaşinqton post" qəzetində Azərbaycana qarşı dərc edilən məqalədə ölkəmizə qarşı yersiz iddialar yer alıb. Bu gün istər ABŞ, istərsə də Fransa 44 günlük savaşın regionda yaratdığı reallıqlarla barışmaq istəmirsə, məqsəd nədir?***

- Azərbaycan torpaqları işğal olunduğu ilk gündən ABŞ, Ermənistan və havadarları ölkəmizə qarşı məkrli siyasət yürütmüşlər. Bu siyasət qapalı formada həyata keçirilmişdi. 1992-ci ildə ABŞ-da Konqres tərəfindən Azərbaycana qarşı "907-ci düzəliş" tətbiq olunmuşdu. Bu düzəlişdə Azərbaycan torpaqları işğal olunduğu halda, sanki işğalçı kimi təqdim olunaraq müəyyən yardımlardan məhrum edilmişdi. Yəni, o vaxtdan Azərbaycana qarşı ədalətsizlik baş vermişdi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasında 4 qətnamə qəbul olunmuşdu. Bu qətnamələrin icrası ATƏT-in Minsk Qrupu yaradılaraq 3 həmsədr dövlətin qarşısına vəzifə kimi qoyulmuşdu. Təəssüflər olsun ki, biz bu 27-30 il ərzində qətnamələrin yerinə yetirilməsini görmədik.

Əksinə, Fransa başda olmaqla, ABŞ Azərbaycan torpaqlarında erməni işğalını əbədiləşdirməyə, Azərbaycan xalqını mövcud status-kvo ilə razılaşdırmağa çalışdılar. Dövlət başçımız bütün beynəlxalq tədbirlərdə deyirdi ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq, əgər məsələ danışıqlar, sülh yolu ulə həllini tapmazsa, güc yolu ilə ərazilərini işğaldan azad edəcəkdir. Əgər ABŞ, Fransa, Rusiya ATƏT-in Minsk qrupunun həmsədrləri kimi ədalətli mövqedən çıxış etsəydilər, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı və biz bu qədər insan itkisi ilə qarşılaşmazdıq. Azərbaycan bu müharibədə şəhidər verdi, Ermənistanın da kifayət qədər itkiləri oldu.

Biz müharibənin başa çatdığı ilk günündən keçən 3 il ərzində sülhdən danışırıq. Ölkə başçısı bəyan etdi ki, müharibəni başa çatdırmışıq və sülh əlimizi uzadırıq. Azərbaycan beş baza prinsipi əsasında təkliflərini Ermənistana təqdim etdi. Biz gördük ki, 10 Noyabr bəyannaməsinə görə, Ermənistan götürdüyü öhdəliyi icra etmədi.

Azərbaycan məcbur olaraq 19 sentyabrda lokal antiterror tədbiləri həyata keçirərək, özü həm bəyannamənin icraasını reallaşdırdı, həm də sülhə xidmət edəcək maneələri aradan götürdü. Ermənistan Qarabağda yaşayan ermənilərin "hüquq və təhlükəsizliyi" məsələsini bir bəhanə kimi sülh prosesinin qarşısında bir maneə kimi qoyur. Qarabağda yaşayan ermənilərin hüquq və azadlıqlarının təmin olunması məsələsinin Azərbaycan qanunları çərçivəsində qorunacağı həm Azərbaycan, həm də Ermənistan tərəfindən qəbul olundu. Bu gün Ermənistan Qarabağı Azərbaycanın suveren ərazisi hesab edir, Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Belə olan halda ona dəstək verən Fransa Ermənistanı silahlandıraraq sülh prosesinə böyük maneə yaratmağa çalışırlar. Bu, müxtəlif formalarda reallaşır. Məsələn, Fransa saxta "etnik təmizləmə" adı atında Ermənistana yardımlar göstərməklə, onu silahlandırmaqla yenidən revanşizmi alovlandırıb sülh prosesinə əngəl yaradır.

***- Necə hesab edirsiniz, Fransanın, eləcə də Qərbin Azərbaycana qarşı yönələn müxtəlif təsir və təhdid elementlərinin altında həm də Zəngəzur dəhlizinin açılmasına qarşı yönələn amilər varmı?***

- Zəngəzur dəhlizindən danışarkən yenə də 2020-ci il 10 noyabrda imzalanmış üçtərəfli bəyanatın üzərinə qayıdırıq. Bu bəyanatın 9-cu bəndində qeyd olunur ki, Azərbaycanın qərb-şərq rayonları ilə Naxçıvanı birləşdirən, maneəsiz keçidi təmin edən bir dəhliz olmalıdır. Ermənistan kapitulyasiyaya imza atdığı ilk gündən buna razılığını bildirsə də, sonradan Amerika və digər havadarlarının dəstəyini hiss edərək, üçtərəfli bəyanatın digər maddələrini icra etmədiyi kimi, Zəngəzur dəhlizinin açılmasından imtina etdi. Azərbaycan dövlət başçısının uzaqgörən siyasəti həmişə alternativ yolların qabaqcadan hazırlanmasına və planlarımızın reallaşdırılmasına imkan verir. Ona görə də Zəngəzur dəhlizinə alternativ olaraq İran üzərindən, Araz çayının sol sahili ilə Naxçıvanı birləşdirəcək yolun tikintisi ilə bağlı razılaşma əldə edildi. Biz gördük ki, artıq Zəngəzur dəhlizi ilə bağlı müəyyən çətinliklər yaranır, Ermənistan Zəngəzur dəhlizinin açılması məsələsini uzatmaq istəyir, ona görə də normal olaraq İrandan keçən yolun tikintisini aktuallaşdırdıq. Dövlət büdcəsindən yolun tikintisinə ilkin vəsaitlər də

> *Ermənilərin bundan sonra Qarabağ adından çıxış etməsinin heç bir nəticəsi olmayacaq*

ayrılıb. İran və Azərbaycan tərəfinin iştirakı ilə Azər çayı üzərindən körpünün təməlləri də qoyuldu. Bunu görən Amerika Birləşmiş Ştatları öz narahatlığını bildirdi. ABŞ-la İran arasında böyük ziddiyyətlərin olduğunu bilirik. Azərbaycanın ərsəyə gətirib İran ərazisindən keçəcək yeni yolu təbii ki, təkcə Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirəcək bir yol olmayacaq. Bu yol Qərblə-Şərqi birləşdirəcək Orta Dəhlisin tərkib hissəsi kimi fəaliyyət göstərəcəkdir.

Bu da Amerikanın maraqlarına ziddir. Ona görə də Azərbaycana qarşı əks-siyasət yürütməyə başlayıblar. Azərbaycan müstəqil dövlətdir, öz beynəlxalq siyasətini özü müəyyənləşdirir. O cümlədən İranın xarici işlər naziri də bəyan etdi ki, İran müstəqil dövlətdir və öz ərazisindən istədiyi istiqamətdə yol çəkdirə bilər. Yəni müstəqil dövlətlər bu siyasəti öz ərazisində müəyyənləşdirib kommunikasiyaları yaradırsa, kənardan hər hansı müdaxilənin olmasından danışmaq mümkün deyil. Ermənistan isə bizim İran ərazisindən yolun çəkilməsinin reallaşdığını görəndə yenidən fəallaşdı və ərazisindən keçən, Naxçıvanı Azərbaycanın əsas hissəsi birəşdirən "yol"un tikintisinə imkan yaradacağına, kommunikasiyaların açılmasına hazır olduğunu bəyan etdi. Eyni zamanda bu yolun Ermənistanın müvafiq mühafizə qüvvələri tərəfindən qoruyacağını bildirdi.

Təbii ki, bütün yollar açılmalıdır, regiona sülh gəlməlidir. Azərbaycanın məqsədi bütün qonşu dövlətlərlə sülh və əməkdaşlıq şəraitində yaşamaqdır. Hesab edirəm ki, bu gün Ermənistanın silahlandırılması, sülh prosesinə manəə olmaq istəyən dairələrin bütün cəhdləri hamısı boşa çıxacaq. Son nəticədə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi də bağlanacaq, yenidən kommunikasiyalar açılacaq. Ölkələr həmişə münaqişə vəziyyətində yaşaya bilməz və gec-tez münaqişəli vəziyyətə son qoyulmalıdır.

***- Sülh müqaviləsinin bağlanmasının qarşında yaradılan məlum maneələri nəzərə alsaq, Ermənistanın sülh müqaviləsini imzalaması hansı zamana qədər mümkün ola biləcək?***

- Sülh müqaviləsinin imzalanması Azərbaycanın təşəbbüsüdür. Mövqeyimiz dəyişilməzdir. Ermənistan mütəmadi olaraq xarici havadarlarının dəstəyinə arxalanaraq sülh müqaviləsini imzalamaqdan yayınır. Biz Ermənistan-Azərbaycan arasında yüksək səviyyəli görüşlərin son anda təxirə salındığını müşahidə etdik. Azərbaycan Qranada, Vaşinqton, Brüssel platformalarından birtərəfli şəkildə imtina etdi. Təbii ki, bunun səbəbləri var idi. O platformalarda Ermənistan Fransanın dəstəyinə arxalanaraq Azərbaycan üzərində üstünlük əldə etmək istəyirdi. Həmin danışıqlar platforması Azərbaycanın milli maraqlarına uyğun gəlmirdi. Amma son günlər biz Ermənisandan da sülh çağırışlarını eşidirik.

Bir neçə gün əvvəl Ermənistan parlamentinin spikeri Simonyan çıxış edərək qeyd etdi ki, Azərbaycanla sülh müqaviləsi 15 gün ərzində imzalana bilər. Bununla yanaşı Azərbaycanın anklavlarına qarşı 31 kəndin Azərbaycan ərazisində olduğunu qeyd etdi. Bunlar bir-birinə zidd fikirlərdir. Əgər sülh müqaviləsini bağlamaq istəyirsənsə niyə sülhə qarşı zərər gətirəcək bir fikir ortaya qoyursan. İkincisi, əgər 15 gün ərzində sülh müqaviləsini bağlamağa hazır olan bir ölkəsənsə, Azərbaycanın sentyabrda təqdim etdiyi sülh təkliflərinin cavabını niyə 71 gün uzatdın. Burada müəyyən bir düsturların həll edilməsinə ehtiyac yoxdur və qısa zaman ərzində müzakirə olunub Azərbaycana bildirilməli idi. Bütün bunları nəzərə alaraq deyə bilərəm ki, Ermənistanın hələ ki, sülh müqaviləsini imzalamaq niyyəti yoxdur. Biz bilirik ki, Ermənistan mövcud olmayan etnik təmizləmə adı ilə dünyadan 10-100 milyonlarla dollar yardımlar alır. Əgər Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalayarsa bu yardımlardan məhrum olacaq. Ona görə də Ermənistan mümkün qədər bu yardımları almaq üçün sülh müqaviləsinin imzalanmasını uzadır. Digər tərəfdən Fransanın məqsədi Ermənistanı Rusiyadan uzaqaşdırmaq, rus hərbi bazalarını bölgədən çıxartmaq və özünün regiona gəlişini təmin etməkdir. Bu niyyətləri realaşdırmaq istəkləri də Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına böyük maneə olaraq qalır.

***- Bu prosesdə Rusiya hansı mövqedə dayanıb və özünün Qarabağda olan sülhməramlıları ilə bu gün ərazilərimizdə hansı missiyanı icra edəcəyini gözləyir?***

- Azərbaycan müstəqil ölkədir və heç vaxt öz ərazisində başqa bir ölkənin hərbi bazasının yaranmasına imkan verməyəcək. Sülhməramlıların Azərbaycandakı mövcudluğu 10 noyabr üçtərəfli bəyannaməyə əsaslanır və 2025-ci ilə qədər qalacaqlar. Bundan o tərəfini isə Azərbaycan özü müəyyənləşdirəcək. Bunun Ermənistana heç bir aidiyyatı yoxdur, sülhməramlılar Azərbaycan ərazisindədir və ona ehtiyac görülmədiyi halda ərazimizdə qalmaları aradan qaldırılacaq. Rusiyanın Ermənistandan çıxarılması da hələ ki, Ermənistanın gücündə deyil. Rusiyanın Ermənistanda hərbi bazaları var. Ermənistan birtərəfli qaydada bu sazişləri poza bilməz. Rusiyanı Ermənistan çıxarmaq qeyri-mümkündür. Ermənistan iqtisadiyyatı Rusiyanın əlindədir. Son vaxtlar biz gördük ki, Lars keçid məntəqəsində böyük tıxaclar yaranır. Rusiya Ermənistandan gələn kənd təsərrüfatı məhsullarına qadağalar qoyur, eləcə də Ermənistana göndərilən mallara məhdudiyyətlər yaradır. Bütün bunlar hamısı Ermənistana ilk siqnallardır. Hesab edirəm ki, Ermənistan Rusiyasız iqtisadiyyat böyük böhrana sürüklənəcək. Ona görə də Ermənistan Rusiyanı ölkədən çıxara bilməyəcək.

Yəni bütün hallarda Rusiyanın regiton, Azərbaycanla bağlı öz maraqlarına yönəlik istəkləri, planları ola bilər. Biz Qarabağın işğaldan azad olunması prosesində bütün xarici manevrlərə baxmayaraq Azərbaycanın hansı qətiyyətli addımlarla özünün mövqeyini müdafiə etdiyini gördük və bu proses bu gün də davam edir. Hər kəs bilsin ki, Azərbaycanın suverenliyini pozmağa çalışan qüvvələr absurd iddialar və haqsız çıxışlarla heç nəyə nail ola bilməzlər.

✍ *Tahirə Qafarlı*



## Təxribat

***İrəvan regionda separatizm kartını dirçəltməyə çalışır. Üç il əvvəl 44 günlük savaşın nəticəsində Azərbaycan ərazilərindən qovulan separatçı rejim, indi də Ermənistanda "Qarabağ Parlamenti" adlı toplantılar keçirir, revanşizmi genişləndirmək üçün çapalayır. Siyasi təhlilçilər hesab edirlər ki, bu toplantı erməni separatçılarının özünü tam buraxmaq haqqında qərarı ilə ziddiyyət təşkil edir.***

# Separatçı "deputatlar"ın gizli toplantısı

Bu məsələnin yenidən gündəmə gətirilməsi, Ermənistanın əsl mahiyyətini, revanşist niyyətlərinin dəyişmədiyini bir daha göstərir.

■ **Milli Məclisin deputatı Musa Quliyev "Həftə içi"nə açıqlamasında erməni separatçılarının "Qarabağ parlamenti" adında toplantılar keçirməsinin heç bir əhəmiyyətinin, mənasının olmadığını deyib:** "Qondarma separatçı rejim özünü buraxıb. Mövcud olduğu dövrdə özlərindən başqa heç kəs onları tanımadı. Qarabağdan gedəndən sonra separatçı rejimin rəhbərlərindən olan Şahmaryan təşkilatı buraxdıqlarını elan etdi. İndi qondarma "Qarabağ Parlamenti"ndə nə danışacaqlarsa, bu nə Azərbaycan, nə Ermənisan, nə də Qarabağdan getmiş ermənilər üçün maraqlı deyil, real ola bilməz.

Ermənilər özlərinin mövcudluğunu qorumaq istəyirlərsə, Azərbaycanla sülh imzalamalı, bölgədə iqtisadi, sosial və digər problemlərin həlli ilə məşğul olmalı, əməkdaşlığa başlamalıdırlar". M.Quliyev Fransa, ABŞ-ın Azərbaycana təsirləri kontekstində regionda qurulan oyunların arxasında sülhü əngəlləmək, daxili sabitliyin pozulması niyyətlərinin dayandığını bildirib. O, prosesin heç də tək Azərbaycan və Ermənistanla bağlı olmadığını, bölgə üzərində gizli və aşkar savaşların getdiyini deyib.

"Məsələ bölgəyə kimin "kəndxudalıq" etməsi ilə bağlıdır. Rusiya bu bölgə ilə qonşu olduğuna və tarixi ənənələrinə görə özünün mövqelərini qoruyub saxlamışdı. Ukrayna-Rusiya müharibəsi başlayandan sonra isə Qərbin Rusiyaya qarşı hücumları, o cümlədən onun bölgədən sıxışdırılıb çıxarılması siyasətini ortaya atdı. Əvvəl Fransa, sonra Almaniya, ABŞ açıq şəkildə bölgədə nüfuz uğrunda savaşırlar. Düşünməlidirlər ki, bölgədə Azərbaycan kimi qüdrətli bir dövlət və onun Türkiyə kimi strateji müttəfiqi varsa, hər hansı oyunlar, riyakar, xəyanətkar addımlarla bölgəyə girmək mümkün deyil. Bölgəyə ancaq sülhlə, əməkdaşlıqla, hər iki tərəflə əməkdaşlıqlar qurmaqla girmək olar. Bunu Azərbaycan Prezidenti dəfələrlə öz çıxışlarında bəyan edib". M.Quliyev ABŞ-nin Azərbaycana qarşı siyasətində qeyri-standart yanaşmalarını önə çəkib. Deputat Azərbaycan siyasilərinin ABŞ Departamenti səviyyəsində Amerikaya buraxılmaması ilə bağlı fikir irəli sürüləndən iki gün sonra Blinkenin cənab Prezidentə zəng vuraraq nümayəndələrin Azərbaycana buraxılmasını xahiş etməsini qeyd edib: "Bu onu göstərir ki, Amerikanın siyasətində stabillik yoxdur, emosiyalara əsaslanan siyasət aparır. Bu mənada hesab edirəm ki, Blinkenin fikrini dəyişməsi və cənab Prezidentə zəng etməsi onu göstərir ki, bölgədə əməkdaşlıq edilən etibarlı dövlət yalnız Azərbaycandır".

■ **Politoloq Qabil Hüseynli bildirir ki, bu, sülh müqaviləsinin bağlanması ilə bağlı beynəlxalq ictimai rəyə təsir göstərmək üçün verilən qərardır:** "Ermənistan hakimiyyət orqanları Qarabağla bağlı hər hansı siyasi qurumun və yaxud da qondarma qurumun ölkənin ərazisində iclas keçirməsinə razılıq verməyəcəyi sözünü verib. Amma revanşist qüvvələr, hakimiyyət nümayəndələri nəzərə çarpdırmadan

> *Mövcud olduğu dövrdə özlərindən başqa onları heç kəs tanımadı*

> *Revanşist qüvvələr, hakimiyyət nümayəndələri nəzərə çarpdırmadan "Qarabağ kartı"nı oynamaqda davam edirlər*

> *Bu hərəkətlər bir daha sübut edir ki, Ermənistan dövləti separatizmin, tibbi dildə desək, beyin xərçənginə tutulub*

"Qarabağ kartını" oynamaqda davam edirlər. Əgər revanşistlər bu məsələni daha radikal formada çözməyi tələb edirlərsə, iqtidar mənsubları məsələni beynəlxalq təşkilatların və iri dövlətlərin təzyiqi ilə həyata keçirmək taktikasını müdafiə edirlər". Q.Hüseynli bütün bu cəhdlərə baxmayaraq, "Ermənilərin qatarı çoxdan gedib", - deyə onların Qarabağın dağlıq hissəsinə yenidən qaytarılmasının mümkün olmayacağını bildirir: "Saxta tarixin bir daha təkrarlanmasına imkan verilməyəcək. Əzəli qədim Azərbaycan torpaqlarında yalnız azərbaycanlıların yaşamasına icazə verə bilər. Ermənilər könüllü şəkildə o əraziləri tərk etdiyinə görə bir daha ora qayıtmaq hüquqlarını itiriblər".

■ **"Yeni Xətt" Müstəqil Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri, siyasi ekspert Ramil Hüseynov qeyd edib ki, Ermənistan belə bir qurumun onlara heç bir aidiyyəti olmadığını rəsmən bildirib.**

⏩ Səh. 5

# Heydər Əliyevin fəaliyyətində türk dünyası

## Layihə

***Tarixən məlumdur ki, bəzi xarici qüvvələr həmişə türk dövlətləri arasında qardaşlıq və birlik münasibətlərinin yaranmasından narahat olublar. Elə bu səbəbdən də türkdilli ölkələr arasında əlaqələrin qırılması, münasibətlərin zəifləməsi üçün əllərindən gələni ediblər. Müəyyən dövrdə, hətta bu istəklərinə nail də olublar. Məsələn, sovet dönəmində bəzi illəri nəzərə almasaq, Türkiyə ilə münasibətlər demək olar ki, mövcud olmayıb. Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstan ilə münasibətlər isə İttifaq tərkibində sovet respublikaları olduğuna görə saxlanılmışdı.***



Qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin o dövrdəki siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmırdı, bütövlükdə Türk dünyasını, ümumən dünyanı əhatə edirdi. Ulu Öndərin baxışları və fəaliyyətində Türkiyə və türk dünyası ilə əlaqələrin qurulub inkişaf etdirilməsi xüsusi yer tuturdu. Onun bu sahədəki mövqeyi Azərbaycan daxilindəki fəaliyyətdə, SSRİ-nin türk xalqlarına münasibətdə, Türkiyə və Türk dünyası ilə əlaqələrin qurulub inkişaf etdirilməsində özünü büruzə verirdi. O, öz fəaliyyətində Türkiyəyə, türk və müsəlman dünyasına daha geniş baxaraq onları vəhdətdə görürdü. Heydər Əliyev bu məsələdə özünün mükəmməl nəzəri biliyi və nəhəng praktik fəaliyyəti ilə seçilirdi.

Türk və müsəlman xalqları arasında mədəni əlaqələrin gücləndirilməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev bu istiqamətdə fəaliyyət göstərirdi. Həmin illərdə Azərbaycanın rəhbəri kimi Heydər Əliyev respublikamızın Türkiyə ilə həm elmi, həm də mədəni-humanitar əlaqələrinin bərpa edilməsi və genişləndirilməsi məslələlərinə mühüm əhəmiyyət verir, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması üçün özünün İttifaq rəhbərliyi yanındakı nüfuzundan maksimim dərəcədə istifadə etməyə çalışırdı. Təbii ki, Azərbaycanın məşhur musiqiçilərinin Türkiyəyə qastrol səfərlərinin təşkili üçün mərkəzi hakimiyyətdən razılıq almaq heç də asan deyildi. Onun müdrik və uzaqgörən siyasəti bu çətinliklərin də öhdəsindən gəlirdi. Eyni zamanda, Azərbaycanda keçirilən müxtəlif mədəni-kütləvi tədbirlərdə ittifaq tərkibindəki türkdilli respublikaların nümayəndələrinin fəal iştirakı, onların incəsənət ustalarının, musiqi kollektivlərinin çıxışları eyni genetik kökü olan xalqların daha da yaxınlaşmasında əvəzsiz rol oynayırdı. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda türkdilli xalqların və respublikaların mədəniyyət günlərinin keçirilməsi ənənə halını almışdı. Həmin illərdə Azərbaycanda qazax şairi və filosofu Abay Kunanbayevin, məşhur qırğız eposu "Manas"ın, türk dünyasının şah əsərlərindən olan "Kitabi-Dədə Qorqud"un yubileylərini yüksək səviyyədə keçirilməsi ümumtürk mədəniyyətinin inkişafına layiqli töhfə oldu.

Türkiyə və türkdilli respublikalarla ədəbiyyat sahəsində əlaqlərin fəallaşması da dahi liderin daim diqqət mərkəzində idi. Hələ sovet dövründə türkçülüyün fəal təbliğatçısı olan qazax şairi Oljas Süleymenovun, dünya şöhrətli yazıçı Çingiz Aytmatovun Azərbaycanla sıx əlaqələri məhz Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində yarandı.

SSRİ dağıldıqdan sonra Azərbaycan müstəqil türk dövləti kimi dünya ictimaiyyəti tərəfindən tanınsa da, beynəlxalq aləmdə nüfuz qazana bilməmişdi. Azərbaycan dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən biri türk dövlətləri ilə münasibətlərin yeni təməl üzərində qurulması oldu.

Prezident Heydər Əliyevin yürütdüyü ardıcıl, uğurlu beynəlxalq siyasi fəaliyyət nəticəsində 1994-cü ilin əvvəllərindən etibarən türk dövlətləri ilə münasibətlərdə əsaslı dönüş yaranmağa başladı. Ulu öndərin xarici ölkələrə ilk səfərlərindən biri 1994-cü ilin fevral ayında məhz Türkiyəyə oldu. Səfər zamanı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli siyasi, ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığı daha da inkişaf etdirməyi nəzərdə tutan bir sıra mühüm sənədlər imzalandı.

Ümummilli lider Heydər Əliyevə sülh uğrunda apardığı mübarizəyə görə beynəlxalq "Atatürk Sülh Mükafatı" təqdim olunması (1999) münasibətilə onun dediyi sözlər Atatürkün və Türkiyənin təcrübəsinin Azərbaycan üçün nə demək olduğunu çox aydın şəkildə göstərir: "Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu, mənim üçün, bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bununla fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq qalacağam".

Təsadüfi deyildir ki, Ulu Öndərin təşəbbüsü və sərəncamı ilə böyük Mustafa Kamalın irsini öyrənmək və təbliğ etmək üçün 2001-ci ildə Bakıda Atatürk Mərkəzi yaradılmışdır. Bütün bunlar Heydər Əliyevin iki ölkə arasında münasibətlərin yeni təməl üzərində qurulmasında və bütövlükdə türk dünyası qarşısında tarixi xidməti idi.

1996-cı il mayın 27-də isə "Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə"nin, 1997-ci ildə Qırğızıstanla ticarət-iqtisadi əməkdaşlığa dair sazişin, həmin ilin iyun ayında Qazaxıstana rəsmi səfər zamanı ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında bəyannamə və Qazaxıstan neftinin beynəlxalq bazarlara daşınmasında əməkdaşlıq haqqında memorandumun imzalanması ilə qarşılıqlı faydalı əməkdaşlıq quruldu. Türkmənistan Respublikası ilə də münasibətlərin möhkəmlənməsinə xüsusi diqqət yetirən Ulu öndər 1994-cü ilin oktyabr ayında bu ölkəyə də rəsmi səfər etdi.

Türkmənistan Prezidenti Saparmurad Niyazov da 1996-cı ilin mart ayında Bakıda rəsmi səfərdə oldu. Bu səfərlərin nəticəsində ikitərəfli siyasi, iqtisadi və mədəni əməkdaşlığın inkişaf etdirilməsi üçün bir sıra vacib sənədlər imzalandı və mühüm məsələlərə dair ümumi razılaşma əldə olundu. Sonrakı illərdə digər sahələrdə də əlaqələr tənzimləndi və münasibətlərin yeni təməl üzərində inkişafı üçün zəmin yarandı.

Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmadığından onun atdığı addımlardan bütün türkdilli ölkələr faydalanırdı. Məsələn, dahi liderin yeni neft strategiyasının həyata keçməsi - "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın mənafeyi ilə yanaşı, türk birliyinin maraqlarını nəzərə almışdır. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişində daim Türkiyə ilə eyni maraqları bölüşən Azərbaycan dövləti layihələrin gerçəkləşməsində də iki dost, qardaş xalqın mövqeyini qətiyyətlə dəstəkləmişdir. Bu kəmərlərin keçməsi üçün digər alternativ yollar təklif edilsə də, Heydər Əliyev öz sözünün üstündə dayanaraq bu məsələni böyük türk dünyasının zənginləşməsi nöqteyi-nəzərindən həll etmişdir.

Ümummilli liderin türk dünyasının yüksəlişi barədəki strateji mövqeyini onun aşağıdakı sözləri çox aydın və açıq şəkildə göstərir: "Özününün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni, misilsiz nümunələr vermək iqtidarındadır.Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır".

Hazırda Ulu öndərin bu siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və onun Türk Dünyası Dövlətlərinin birliyi, qardaşlığı və həmrəyliyi uğrunda gərgin və yorulmaz fəaliyyəti öz bəhrəsini verməkdədir. Prezident özü bu barədə Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında bildirmişdir: "Türk dünyası böyük dünyadır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur. Biz xəritəyə baxsaq görərik ki, əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı. Ancaq buna baxmayaraq, bizi birləşdirən təkcə coğrafi koordinatlar deyil. Bizi birləşdirən aramızdakı münasibətlərdir, qardaşlığımızdır, ortaq keçmişimizdir, bu günümüzdür. Bizim gücümüz bizim birliyimizdədir. Biz çalışmalıyıq ki, bütün sahələrdə bu birliyi daha da möhkəmləndirək".

Müasir dövrdə İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın həmrəyliyi türk dünyasının böyük gələcəyinin əsas təminatı deməkdir. Artıq Heydər Əliyevin böyük uzaqgörənliklə ifadə etdiyi "Bir millət, iki dövlət" gerçəkliyi türk dünyasında sürətlə genişlənməkdə olan inteqrasiyanın nəticəsində "Bir millət, iki dövlət"ə doğru inkişaf etməkdədir.

***✍ Sevinc***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi
HEYDƏR ƏLİYEV İLİ

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*



# Daxili işlər orqanları üçün kadr hazırlığı qaydası müəyyənləşib

**Daxili işlər orqanları üçün kadr hazırlayan təhsil müəssisələrində təhsil alan şəxslər də kursant adlandırılacaq. Bu, Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilən Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"-də dəyişiklik edilməsi barədə" qanunda əksini tapıb.**

Qanunla Daxili işlər orqanları üçün kadr hazırlığı qaydası da müəyyənləşib. Qanuna əsasən, daxili işlər orqanlarının orta, böyük, ali rəis heyəti vəzifələri üçün orta ixtisas və ali hüquq təhsilli kadrların hazırlanması, habelə daxili işlər orqanlarının əməkdaşlarının əlavə təhsilli müvafiq icra hakimiyyəti orqanının xüsusi təyinatlı təhsil müəssisələri tərəfindən həyata keçiriləcək. Müvafiq icra hakimiyyəti orqanının xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları (18 yaşına çatmayan kursantlar istisna olmaqla) və dinləyiciləri müvafiq təhsil proqramlarının tərkib hissəsi olaraq, ixtisas üzrə təcrübənin keçirilməsi məqsədilə daxili işlər orqanlarının üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsinə cəlb ediləcəklər.

Daxili işlər orqanlarının əməkdaşlarının müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşlarının müvafiq icra hakimiyyəti orqanının xüsusi təyinatlı təhsil müəssisələrində əlavə təhsilə cəlb edilməsi daxili işlər orqanlarının müvafiq ixtisaslı mütəxəssislərlə komplektləşdirmə ehtiyaclarının ödənilməsi məqsədilə həyata keçiriləcək.

# Azərbaycan Prezidenti Ermənistanla sülh müqaviləsi imzalamaq niyyətindədir

**Zəngilan səfəri məndə çox böyük təəssürat yaradıb. Azərbaycanda bu cür genişmiqyaslı bərpa-quruculuq işlərinin birinci dəfədir şahidi oldum. Bu sözləri dekabrın 6-da ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda iştirak edən ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun sabiq həmsədri, beynəlxalq ekspert Metyu Brayza söyləyib.**



"Məni heyran edən ikinci məqam həmin bu genişmiqyaslı prosesin regionda davam edən mina təhlükəsi dövründə baş tutmasıdır. Çünki Ermənistan tərəfi hələ də dəqiq mina xəritələrini Azərbaycana təqdim etməyib və bu, insanların qayıtması üçün böyük təhlükə yaradır. Buna baxmayaraq, bərpa və quruculuq işləri sürətlə və uğurla davam edir", - deyə M.Brayza qeyd edib. Beynəlxalq ekspert bildirib ki, müasir tarixdə tamamilə dağıdılmış və o qədər böyük əraziyə bənzər bir nümunə olmayıb. İndi isə bu ərazi yenidən qurulacaq və öz doğma torpaqlarına qayıdan insanlar üçün normal həyat şəraiti yaradılacaq.

"Bundan əlavə, biz bu gün Prezident İlham Əliyev ilə üç saat ərzində danışıqlar aparmışıq. Dövlət başçısı hər bir iştirakçının sualını cavablandırıb, öz fikrini çox aydın və səmimi şəkildə ifadə edib. O, öz nitqində Azərbaycanın gələcəyindən, Mərkəzi Asiya və Avropa ölkələri ilə əlaqələrdən, həmçinin Azərbaycanın iqtisadi və siyasi müstəqilliyə nail olmasından söz açıb. Azərbaycan Prezidenti Ermənistanla sülh müqaviləsi imzalamaq niyyətindədir. O, həmçinin Paşinyanın sülh müqaviləsini imzalamaq üçün sonuncu maneəni, yəni, Qarabağdan qeyri-qanuni erməni qoşunlarının çıxarılmasını və separatçı siyasi rejimi necə aradan qaldırdığını vurğulayıb", - deyə sabiq səfir diqqətə çatdırıb.

# Balaban UNESCO-nun reprezentativ siyahısına daxil edildi

**Botsvananın Kasane şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin XVIII sessiyasında Azərbaycan və Türkiyənin birgə təqdim etdiyi "Balaban sənətkarlığı və ifaçılıq sənəti" çoxmillətli nominasiya faylı komitənin yekdil qərarı ilə bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilib.**

Hafta.az Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyinə istinadən xəbər verir ki, "Balaban sənətkarlığı və ifaçılıq sənəti" nominasiyasının qəbulu zamanı ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev çıxış edərək, faylın yekdil qəbuluna görə Komitə üzvlərinə təşəkkürünü bildirib.

Balaban sənətkarlıq və ifaçılıq sənətinin əsrlər boyu Azərbaycan xalqının qeyri-maddi mədəni irsinin bir parçası olduğunu deyən natiq ölkəmizdə bu qeyri-maddi mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində görülən işlərdən danışıb.

## XƏBƏRİNİZ OLSUN...



■ Məişət zorakılığı halları ilə bağlı bizi narahat edən məsələlərdən biri təqsirləndirilən şəxslə zərərçəkmiş şəxsin barışmasıdır. Bunu Ali Məhkəmənin Cinayət Kollegiyasının hakimi Ələsgər Novruzov deyib. O bildirib ki, bu cür hallar əksər vaxtlar cinayətlə yekunlaşır.

---

■ Ermənistan və İran Araz çayı üzərində yeni körpünün layihəsi üzərində işləyir. İndi mütəxəssislər körpünün sonrakı layihələndirilməsi üçün texniki-iqtisadi əsaslandırma aparırlar. Bu barədə Ermənistanın ərazi idarəetmə və infrastruktur nazirinin müavini Kristina Qaleçyan bildirib.

---

■ "Qırmızı bülleten"lə axtarışda olan narkotik taciri və mütəşəkkil cinayətkar dəstənin rəhbəri Şaun Monağan İstanbulda keçirilən "KAFES-16" əməliyyatı ilə saxlanılıb. Bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya bu barədə "X" sosial şəbəkəsində məlumat yayıb.

---




■ Tərəvəz istehsalını daha dayanıqlı vəziyyətə gətirmək, təqribən, 9 800 ha sahədə istixanaların təkmilləşdirilməsinə 3,81 milyard ABŞ dollar dəyərində investisiyanın yatırılmasına ehtiyac var. 0,5 milyon ha əkilən torpaqda (buğda, qarğıdalı, pambıq və tərəvəz üçün) mühafizə xarakterli kənd təsərrüfatı (minimum əkin) texnologiyasının mənimsənilməsi nisbətən daha az - 10,1 milyon ABŞ dollar dəyərində investisiya tələb edir.

---

■ "Ehtiyac olarsa, minaaxtaran siçovulların sayı artırılacaq". Bunu APA-ya açıqlamasında Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov deyib. O bildirib ki, mina təmizləmə işləri üçün siçovullar bir müddət əvvəl ölkəmizə gətirilib və ilkin mərhələdə onlar akklimatizasiyadan keçib.

---

■ ABŞ Dövlət Departamentinin nümayəndəsi Miller bildirib ki, Vaşinqton Bakı ilə əlaqələrini heç vaxt dayandırmayıb, eyni zamanda, İrəvanla da birbaşa əlaqə saxlayır. Bu bəyanat bəzi qərbpərəstlərin təbliğatını puç etdi. Bunu erməni politoloq Suren Surenyants deyib.

---



■ "Qobu Park-2" yaşayış massivində ölüm hadisəsi baş verib. Qaradağ rayonu, Lökbatan qəsəbəsində yerləşən "Qobu Park-2" yaşayış massivində 30 yaşlarında olan Tural Qurbanov adlı şəxs yaşadığı 20-ci binanın 8-ci mərtəbəsində iş görərkən balkondan yıxılıb. O, aldığı xəsarətdən hadisə yerində dünyasını dəyişib.

---

■ Ukraynanın Prezident Ofisinin rəhbəri Andrey Yermak xəbərdarlıq edib ki, ABŞ-nin yeni hərbi yardımı olmasa, Kiyevin müharibəni uduzmaq riski var. "Olduğumuz mövqeləri əldə saxlamaq və sadəcə sağ qalmaq bizim üçün çətin olacaq", - deyə Andrey Yermak əlavə edib.

# Ermənilərin evləri dövlət tərəfindən qorunur



Ədalət Verdiyev,
hərbi ekspert

***Bu günlərdə erməni bloqçu Natali Aleksanyanla maraqlı debatı baş tutmuş hərbi ekspert Ədalət Verdiyevlə hafta.az üçün budəfəki söhbətimizdə Ermənistanın bir cəmiyyət olaraq Azərbaycanla sülhə nə dərəcədə hazır olması, Rusiyanın və Ermənistandakı Qarabağ klanının Qarabağdan köçən ermənilər arasındakı, azı, 15 minə yaxın hərbiləşdirilmiş, özü də gənclərdən ibarət kütlədən Paşinyan hakimiyyətini devirmək üçün istifadə etmələri ehtimalı, Paşinyanın artıq Ermənistan ordusunda Rusiyanın "5-ci kalon"unun sıradan çıxarılması haqda açıqlaması, ordumuzun 19-20 sentyabr əməliyyatlarından sonra keçən 3 aya yaxın müddətin əksər günlərində də Rusiya "sülhməramlı"larının öz dislokasiya xəritələrində Laçın şəhərini məsuliyyət zonalarına daxil etmələrinin səbəbləri və s. haqda danışdıq.***

## Müsahib

***- Bu günlərdə sizin erməni bloqçu Natali Aleksanyanla maraqlı debatınızı dinlədik. Ümumiyyətlə, müşahidələriniz, təhlilləriniz nə göstərir? Natali kimi reallığı dərk edənlər, Qarabağdan köçənlər də daxil olmaqla, Ermənistan əhalisinin, təxminən, neçə faizini təşkil edər? Başqa sözlə, Ermənistan bir cəmiyyət olaraq Azərbaycanla sülhə nə dərəcədə hazırdır?***

- Ermənistanda bloqçu Natali Aleksanyan kimi yeni reallıqları dərk edənlərin sayı, təəssüf ki, hələ çox deyil. Amma nəzərə alsaq ki, bu ölkədə Vətən müharibəsinədək belə insanların sayı yox səviyyəsində idi, o zaman indiki durumu az da olsa, qənaətbəxş hesab edə bilərik. Azərbaycan seqmentində olan jurnalistlərin, mütəxəssislərin, ekspertlərin, deputat və siyasi xadimlərin apardığı məqsədyönlü fəaliyyətlər Ermənistanda ictimai fikrin qismən də olsa, dəyişməsinə gətirib çıxarıb və son aylar ərzində biz əks tərəfdən daha çox Azərbaycanla birbaşa danışıqlar tərəfdarı olan ziyalılarına rast gəlirik...

Onu bir daha deməliyik ki, Ermənistanın Azərbaycanla sülhə hazır olmaqdan başqa yolu yoxdur. Ermənistan bu sülhü mütləq imzalayacaq. Bu gün həmin ölkəyə sülh daha çox ehtiyacdır, nəinki Azərbaycana... Azərbaycana sülh 44 günlük Vətən savaşınadək lazım idi ki, o zaman bizim qız-gəlin, uşaqyaşlı, ahıl vətəndaşlarımız öz yaşadıqları evlərdə belə düşmən güllə və ya mərmilərindən həyatlarını itirirdilər. Azərbaycan üçün belə bir təhlükə mövcud deyil. Azərbaycan qalib tərəf olmasına rəğmən davamlı olaraq sülh təkliflərini təqdim edir, Ermənistan isə prosesi bir qədər uzatmağa çalışır. Bu sülh sazişi Ermənistanın daxilində müəyyən kataklizmlərə də yol açır...

***- Son illər ərzində Ermənistanın hərbi ekspertləri və ya politoloqlarıyla ələqə quraraq oxşar debatlara çıxmağa cəhd etməmisiniz ki?***

- Mən dəfələrlə efirlərdə və müsahibələrimdə istənilən şəxslə, o cümlədən Ermənistandan olan siyasətçi və politoloqlarla, xüsusilə də hərbi ekspertlərlə müzakirələrə daim açıq olduğumu bəyan etmişəm. Ermənistan televiziyalarına, saytlarına da açıqlama və müsahibələr verməyə, debatlara çıxmağa da hazıram. Mən bundan heç bir zaman imtina etməmişəm. Hesab edirəm ki, baş verən hadisə və proseslərin gerçəkliyini Ermənistan ictimaiyyətinə çatdırmaq bizim vəzifələrimizdən biridir. Erməni ictimaiyyətindən də mənim statuslarıma rəy yazanlar var... Odur ki, müxtəlif formatlarda bu cür ictimai müzakirələrin təşkili bizim üçün bəlkə də prioritetlərdən biri olmalıdır...

***- Azərbaycan Silahlı Qüvvələrinin 19-20 sentyabr tarixli lokal əməliyyatından sonra Qarabağdan könüllü şəkildə çıxan ermənilərin sayını Ermənistan da, xarici mənbələr də 100 mindən çox göstərdi. Azərbaycanın müvafiq qurumları bu haqda rəsmi rəqəm açıqlamadı və buna reaksiya da vermədi. Halbuki, o əraziyə siz də bələdsiniz, sərtdöngəli, dolama və o qədər də geniş olmayan Şuşa-Laçın-Gorus yolu ilə qısa müddətdə avtomobillərlə o sayda adamın çıxması mümkün deyildi. Sizin nə məlumatınız var, Qarabağdan köçmüş ermənilərin gerçək sayı barədə?***

- Azərbaycan ərazilərini tərk edən ermənilərin sayını təsdiq və ya təkzib etmək üçün əlimdə xüsusi mexanizm, yaxud həmin sayı hesablayacaq resurslar mövcud deyil. Qeyri-rəsmi məlumatlara əsasən deyə bilərəm ki, Qarabağdan köçmüş ermənilərin sayı göstəriləndən bir qədər az ola bilər. Bu yenə də heç nəyi dəyişmir. Həmin o əhalinin böyük bir hissəsi Ermənistan vətəndaşları idi, digər hissəsi isə xarici ölkələrdən gələrək Azərbaycan ərazisində qanunsuz məskunlaşdırılmış erməniəsilli adamlar idi. Qarabağdan Ermənistana gedən yolun dolanbac, narahat olması isə o demək deyil ki, 100 min insan bir həftədə həmin yolla ərazini tərk edə bilməzdi. Əgər hətta hesab etsək ki, Azərbaycan ərazisindən doğrudan da, 100 mindən çox erməni köçüb. Onların əksəriyyəti Azərbaycanla sərhədə çox yaxın olan Gorunzur kəndinə gedir, daha sonra onları digər rayonlara paylaşdırırdılar...

Hər bir halda Qarabağın dağlıq hissəsindən nə qədər erməninin köçməsi Azərbaycan üçün o qədər də önəmli deyil. Bizim üçün önəmli olan odur ki, ermənilərin könüllü olaraq tərk etdiyi ərazidə qalan şəxsi əmlakına toxunmuruq. Onlara aid evlər Azərbaycan dövləti tərəfindən qorunur. Qarabağda doğulub boya-başa çatan və Azərbaycan vətəndaşlığını qəbul etməyə hazır olan ermənilər istədikləri halda geri qayıdıb ərazimizdə yaşaya bilərlər. Qarabağa qayıdacaq ermənilərin sayının çox olacağını düşünmürəm. Onların əksəriyyəti bu və ya digər şəkildə silahlı birləşmələrin tərkibində Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak edib. Ona görə də belələrinin Qarabağ geri dönüb yaşayışını davam etdirməsi məqsədəuyğun olmaya bilər...

> "Qarabağ ermənilərinin Ermənistana gəlməsi onlar tərəfindən zülmə məruz qalmış haylara qıcıq gətirir

***- Bəzi siyasi şərhçilərimiz deyir ki, Qarabağdan köçən ermənilər arasındakı azı 15 minə yaxın hərbiləşdirilmiş, özü də gənclərdən ibarət kütlədən Rusiya, Qarabağ klanı və revanşist qüvvələr gec-tez Paşinyan hakimiyyətinə qarşı istifadə edəcək və həmin hakimiyyəti devirərək Köçəryan-Sərkisyan dövründəkinə uyğun tam Rusiyameyilli bir hakimiyyət quracaqlar. Siz nə düşünürsünüz bu barədə?***

- Qarabağdan köçmüş erməni kütləsinin İrəvanda Paşinyan hakimiyyətinə qarşı istifadəsi mümkündür. Bunu mən əvvəllər də söyləmişəm. Həmin adamların çoxu ruhən Robert Köçəryan və Serjik Sərkisyan komandasına daha yaxındırlar. Belələrinin sığına biləcəyi yeganə qüvvələr də həmin komandalardır. Hər bir halda Azərbaycan ərazisindən köçmüş ermənilərin Ermənistan erməniləri ilə münasibətləri kifayət qədər gərgindir. Bunun bir sıra səbəblərini mən bilirdim. Bu günlərdə debata çıxdığım erməni bloqçu Natali Aleksanyandan da soruşdum. Onun bildirdiyinə görə, Qarabağda hərbi xidmətdə olarkən Ermənistandan gələn heyətə qarşı Qarabağ erməniləri böyük qəddarlıqlar törədiblər. Buna görə də indi həmin Qarabağ ermənilərinin Ermənistana gəlməsi onlar tərəfindən zülmə məruz qalmış haylara qıcıq gətirir və buna aid yetərincə videomateriallar mövcuddur...

***- Bu günlərdə Nikol Paşinyan canlı yayımda vətəndaşların suallarını cavablandırarkən dedi ki, artıq Ermənistan ordusunda Rusiyanın "5-ci kalon"u sıradan çıxarılıb. Yəni belə çıxır ki, artıq bir neçə ay əvvəl deyilən Moskva tərəfindən hazırlanan hərbi çevriliş planı da baş tutmayacaq. Necə hesab edirsiz, doğrudanmı Ermənistan Silahlı Qüvvələri Rusiyanın təsiri altından çıxıb?***

- Ermənistan ordusunun Rusiyanın təsirindən çıxması haqqında danışmaq hələ tezdir. Düzdür, rəsmi İrəvan KTMT-dən rəsmi şəkildə çıxmasa da, onun bir sıra tədbir və təlimlərində iştirakdan imtina edir. Amma iqtisadi cəhətdən Ermənistan Rusiyadan elə bir dərəcədə asılıdır ki, Avrasiya İqtisadi Birliyindən uzaqlaşarsa, bu ölkə bəlkə də boğular. Son aylarda Ermənistanın Rusiyaya qarşı demarşlarına gəlincə isə, buna cavab olaraq böyük ehtimalla Moskva Yuxarı Lars keçidinə uzun müddətliyinə bağlayacaq. Qaz təchizatı ilə bağlı da Ermənistanda müəyyən problemlərin yaranacağını gözləməyə dəyər. Bəlkə də qazın satış qiymətində də ermənilər üçün müəyyən yüksəlişlər tətbiq ediləcək...

***- Azərbaycanın bəzi politoloqları vurğulayır ki, biz Ermənistanla sərhədlərimizin delimitasiya-demarkasiya prosesində əsas kimi, nə 1991-ci il, nə 1975-ci il, xəritələrini yox, 1920-ci il, yəni Azərbaycan Xalq Cümhuriyyəti Rusiya tərəfindən işğal edilən dövrədək olan sərhədlərimizi əsas götürməliyik. Və hətta Milli Məclis adından Ermənistana Zəngəzuru Azərbaycan ərazisi kimi tanımaları haqda rəsmi təklif yollamalıyıq. Siz necə düşünürsünüz, Azərbaycan müxtəlif siyasi cəbhələrdən təzyiqlərin olduğu mövcud geosiyasi və hərbi-siyasi durumda bu, nə dərəcədə reallığa uyğun bir strategiya ola bilər?***

- Delimitasiya və demarkasiya sırf hərbi sahəyə aid olmadığı üçün burada daha çox Tofiq Zülfüqarovun fikirləri ilə razılaşmağa üstünlük verərdim. Tofiq müəllim bu sahədə kifayət qədər təcrübəlidir və onun fikirlərini təkzib etmək üçün əlimdə heç bir əsas yoxdur. Hesab edirəm ki, Azərbaycan ən azından tarixi torpaqlarına qayıtma hüququna malikdir. Və Qərbi Azərbaycandan olan soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıtması üçün hər birimiz bir vətəndaş olaraq əlimizdən gələni etməliyik...

Azərbaycana xaricdən təzyiqlərə gəlincə, belə ədalətsiz təzyiqlər 1991-1994-cü illərdə Ermənistan torpaqlarımızı açıq şəkildə işğal edərkən də, bizə qarşı soyqırımları həyata keçirərkən də, 30 ilə yaxın müddətdə torpaqlarımız işğal altında qaldığı vaxtda da olub. 44 günlük Vətən savaşından sonrakı son 3 ildə də Azərbaycanın Ali Baş Komandanı və onun ətrafındakı mükəmməl diplomatik korpus bu cür təzyiqləri layiqincə cavablandırıb və bundan sonra da cavablandırmaq gücündədir...

***- Son vaxtlar "Moskva Yaxın Şərqə çıxışı və digər maraqları naminə Zəngəzur yolunun açılması üçün Azərbaycanı Ermənistanla yeni müharibəyə təhrik edir" tezisinin də işlənmə tezliyi artmaqdadır. Sizin bu haqda fikirləriniz bilmək maraqlı olardı?***

- Bu fikrə mən bugünün kontekstindən deyil, 10 noyabr üçtərəfli bəyanatının imzalandığı günün reallığından baxmaq istərdim. Yəni bu sırf Azərbaycanın maraqları çərçivəsindən atılan bir addımdır. Çünki 2020-ci ilin 10 noyabrında nə Rusiya-Ukrayna müharibəsi vardı, yeni Rusiyanın sanksiyalara məruz qalması və çıxış yolları araması məsələləri gündəmdə deyildi, nə də Yaxın Şərqdə "HƏMAS"-İsrail savaşı başlamışdı... Bir sözlə, Zəngəzur dəhlizi Azərbaycanın haqqıdır. Düzdür, Ermənistan bunu müəyyən dərəcədə ləngitməklə Azərbaycanı İran üzərindən Naxçıvana yeni yolun çəkilməsi ilə bağlı saziş imzalamağa yönləndirə bildi. Zəngəzur dəhlizinin açılmaması eyni zamanda Ermənistanın da blokada şəraitində qalmasına səbəb olur.

Bu, həmin ölkəyə yaxşı heç nə vəd etmir. Ermənistanın Gürcüstan ərazisi vasitəsilə Rusiya ilə əlaqəsini yaradan Yuxarı Lars yolu onsuz da narahat idi, hazırda da Moskva onu müxtəlif bəhanələrlə bağlı saxlayır və ya təmizləmir. Digər tərəfdən isə Azərbaycan ilə Türkiyə Ermənistan Zəngəzur dəhlizini açmayanadək onunla kommunikasiya əlaqələri qurmayacaq. Bu da Ermənistanın gələcəyini şübhə altına alır...

***- Silahlı Qüvvələrimizin 19-20 sentyabr əməliyyatlarından sonra da Rusiya Müdafiə Nazirliyinin rəsmi saytındakı "sülhməramlı"lara aid bölmədə təxminən bir həftəni çıxmaq şərti ilə qalan günlərə aid dislokasiya xəritələrində Laçın şəhəri bu ölkənin hərbi qüvvələrinin məsuliyyət zonasına daxil edilir. Artıq bunun səbəbini təsadüf, texniki səhvlə və ya Rusiya MN-in həmin xəritələri tərtib edən Moskvadakı əməkdaşlarının sərxoş vəziyyətdə olmasıyla izah etmək çox gülüncdür. Rusiya MN-in belə uzun bir müddətdə Laçın kimi hərbi strateji və hazırda güclü və geniş bərpa və yenidənqurma işlərinin getdiyi, böyük maliyyə və insan resurslarının xərcləndiyi bir şəhəri virtual "işğal"da saxlamasını yalnız müstəqil Azərbaycan dövlətinə və xalqına müəyyən bir mesaj kimi dəyərləndirmək mümkündür... Siz necə düşünürsünüz?***

- Rusiya Müdafiə Nazirliyinin rəsmi saytındakı "sülhməramlı"lara aid bölmədə həmin qüvvələrin məsuliyyət zonalarına aid xəritələrin reallıqla yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur.

Biz bu məsələləri dəfələrlə müzakirə etmişik. Özüm şəxsən bunu araşdırmaq məqsədi ilə Laçın ərazisinə bir neçə dəfə səfər etmişəm. Sonuncu dəfə bu il noyabr ayının əvvəllərində Laçın şəhərində olmuşam, yeni tikilmiş alternativ yolla "Laçın" sərhəd-keçid məntəqəsinə də getmişəm. Laçın-Şuşa yolunda da olmuşam. Və tam əminlik və səmimiyyətlə deyirəm ki, hazırda Rusiya kontingentinin ərazidəki fəaliyyəti tamamilə formal xarakter daşıyır...

Sualınıza daha konkret cavab versək, onu demək olar ki, Rusiya Müdafiə Nazirliyinin Laçın şəhərini virtual olaraq öz məsuliyyət zonaları kimi göstərmələrinə rəğmən bu şəhərimizdə eləcə də, rayonun Zabux kəndində sürətli tikinti və bərpa işləri ilə paralel Azərbaycan əhalisinin məskunlaşdırılması da davam edir. Bu gün bilavasitə Laçın şəhərində 1500-ə yaxın keçmiş köçkün vətəndaşımız yaşayır. Və bir nəfər də Rusiya əsgəri, zabiti həmin ərazidə görünmür, oraya daxil ola bilmir. "Sülhməramlı"ların Laçın şəhərinə girişi, patrul xidməti keçirməsindən və s. qətiyyən söhbət gedə bilməz...

Ümumiyyətlə, Rusiya hərbçilərinin üçtərəfli bəyanatla bağlı görəcəkləri bir iş, funksiya qalmayıb. Buna baxmayaraq, nə qədər ki, Rusiya "sülhməramlı" kontingent Azərbaycanın Yuxarı Qarabağ və Laçın "dəhlizi" deyilən ərazisində formal da olsa, fəaliyyət göstərir, təbii ki, dislokasiya xəritələrini də tərtib etməlidirlər. Amma müvafiq qurumlarımız həmin xəritələrdə Azərbaycana qarşı hansısa neqativ hallarla bağlı Rusiya Müdafiə Nazirliyinə öz iradlarını çatdırmalıdır...

✍ Sultan Laçın

# Separatçı "deputatlar"ın gizli toplantısı

◂ əvvəli 3-cü səhifədə

Eyni zamanda qeyd edir ki, Ermənistanda bir neçə ölkəyə, bir neçə xarici qrupa və onların maraqlarına xidmət edən quvvələr mövcuddur və onlar bu yanlışları ilə Ermənistanı uçuruma aparırlar.

"Nəinki qondarma "Qarabağ parlamenti"nin iclasını keçirmək, Ermənistan bir dövlət olaraq özünün siyasi idarəetmə qabiliyyətini itirib və bu siyasi müvazinətsizliyin əsirinə çevrilib. Onların boş revanşist davranışlarının, addımlarının və bəyanatlarının heç bir hüquqi-siyasi əsası yoxdur.

Bu hərəkətlər bir daha sübut edir ki, Ermənistan dövləti separatizmin tibbi dildə desək, beyin xərçənginə tutulub. Bu siyasi xəstəliklə dünya ictimaiyyəti, bəşəriyyətin "siyasi həkimləri" ciddi məşğul olmalıdır. Dünyada baş verən proseslər bunu diqtə edir. Bu xəstəlik müalicə olunmasa, regiona və daha sonra dünyaya mənfi təsirini göstərəcək. Biz dövlət olaraq bu xəstəliyi öz müalicə metodumuzla sağaltmağa çalışdıq və çox böyük naliyyətlərlə uğur qazandıq. Amma təəssüf ki, bəzi dövlətlər, hətta guya demokratik dəyərlərə xidmət edənlər bu uğurlu qələbədən özlərini təcrid edirlər. Yaxın gələcəkdə onların bizim doğru addım atmağımızla bağlı qənaətə gəlməyinin etirafını görəcəyik. Biz o xəstəliyin heç bir halda sərhədlərimizi aşmasına imkan verməyəcəyik".

■ **Politoloq Aytən Qurbanova qeyd edir ki, ilk növbədə, heç vaxt olmayan və heç bir dövlət tərəfindən tanınmayan bir rejimin özünü buraxmaq qərarı qəbul etməsi kifayət qədər absurd bəyanatdır.**



Onun qənaətinə görə, ümumiyyətlə, nə qondarma rejimin, nə də Ermənistanın hərbi-siyasi hakimiyyətinin heç bir nümayəndəsinin bugünə qədər verdiyi bəyanatlar etibarlı mənbə olaraq qəbul edilməyib:

"Onlar bütün fəaliyyətlərini hər zaman yalan üzərində qurublar. Ona görə də ilk fürsətdə yenə "gizli toplantılar"ın keçirilməsi təəccüb yaratmır. Digər tərəfdən, qondarma qurumun hər hansı "fəaliyyəti" heç bir halda bizim üçün ciddi təhdid formalaşdıra və ya siyasi təsir mexanizminə çevrilə bilməz".

■ **Siyasi ekspert Qulu Məhərrəmli bildirir ki, Ermənistanda separatçı qruplar Qarabağ ermənilərini yenidən təşkilatlanmağa, komitə yaratmağa, parlament düzəltməyə sövq edirlər.** Onun qənaətinə görə, bu prosesin qarşısında Sarkisyan, Köçəryan, Petrosyan kimi rusiyameyilli qruplar dayanır:

> "İlk fürsətdə yenə "gizli toplantılar"ın keçirilməsi təəccüblü gəlmir

> "Qondarma qurum olsa da, onun buraxılması ilə bağlı rəsmilərin imzası var

> "Bu prosesin qarşısında Sarkisyan, Köçəryan, Petrosyan kimi rusiyameyilli qruplar dayanır

"Məqsəd tək Azərbaycana qarşı deyil, həm də Ermənistanın daxilində gedən proseslərə təsir etmək, Ermənistanın Qərbə meyillənməsinin qarşısını almaq, Ermənistan-Qərb, Ermənistan-Avropa Birliyi dialoqunu ləngitmək, onu nəticəsiz hala gətirməkdən ibarətdir. Bunun heç bir perspektivi yoxdur.

Ermənilərin siyasət adamları 44 günlük müharibədən sonra elan etmişdilər ki, Dağlıq Qarabağ ermənilərinin heç bir gələcəyi yoxdur. Ona görə istər Ermənistan, istər Rusiyada separatizmi alovlandırmağa çalışan qüvvələrin cəhdləri, xüsusilə də özlərinə yaxşı heç nə vəd etmir".

■ **Politoloq Natiq Cəfərli bildirir ki, hansı bəhanələrlə gündəm yaratmağa çalışsa da, ermənilərin separatizmi alovlandırmaq imkanları, fürsətləri bitib. Onun sözlərinə görə, ermənilər özlərinə hansısa virtual dünya qura, qərarlar verə bilərlər:**

"Reallıq tam əksini deyir. Qondarma qurum olsa da, onun buraxılması ilə bağlı rəsmilərin imzası var. Sadəcə müəyyən problemlər yaratmağa çalışacaqlar. Hansısa rəsmi qurum kimi fəaliyyət göstərmələri isə mümkün deyil".

✍ Tahirə Qafarlı

# Qızılca sürətlə yayılır

**Son günlər qızılca xəstəliyinin geniş yayılması müşahidə olunur. Cəmiyyətdə narahatlıq yaradan məsələ 4 uşağın qızılcadan vəfat etməsi faktı ilə bağlıdır. Verilən məlumatlardan da görünür ki, qızılcaya yoluxma halları orta məktəblərdə xüsusilə yayılıb. Qızılca böyüklərdən də yan keçməyib, ali məktəb tələbələri arasında da yoluxma halları qeydə alınıb. El arasında qızılcanın xəstəlik olmadığı və hər insanın onu mütləq keçirəcəyi deyilir. Qızılca türkəçarə üsullarla müalicə olunan, soyuqdan qorunmaqla tam sağalması mümkün olan bədən halı kimi də qeyd edilir.**



**Nərminə Abbasova,**
"MayoMed" Klinikasının
baş həkimi

## Müsahib

Qızılca nə dərəcədə təhlükəlidir? Bu istiqamətdə "Həftə içi" qəzetinə danışan "MayoMed" Klinikasının baş həkimi Nərminə Abbasova bildirir ki, qızılca xəstəliyi hər kəsin yoluxa biləcəyi infeksion xəstəlikdir, hava, damcı yolu ilə yayılır:

***- Azərbaycanda qızılca sürətlə yayılıb. Bu, xəstəlikdirmi? Nə dərəcədə təhlükə hesab oluna bilər?***

- Qızılca payız-qış fəslinə təsüdüf etdiyi üçün yayılma sürətlidir. Belə ki, uşaqlarda immun sistemi aşağı olduğundan yoluxma ehtimalı yüksəkdir. Ümumiyyətlə, tək qızılca deyil, digər infeksion xəstəliklər də bu fəsillərdə çox aktivləşir. Ona görə də sağlam qidalanmaq, düzgün yuxu rejimi əsas götürülərək bunlara əməl etmək lazımdır. Valideynlər uşaqların düzgün qidalanmasına və yuxu rejiminə diqqət etməli, daim nəzarətdə saxlamalıdırlar. Valideynlər ehtiyatlı olmalıdırlar. Uşaqda müəyyən bir dəyişiklik, qızdırma, öskürək, hansısa halsızlıq, yorğunluq hiss etdiyi halda, həkimə müraciət etməlidir. Valideynlərin məlumatlandırılması vacib şərtdir. Düşünürəm, hər bir valideyn bu yöndə müəyyən qədər məlumatlıdır və diqqətli davranır.

***- Qızılcaya görə məktəblər bağlanmalıdırmı?***

- Məktəblər, bağçalar yoluxma hallarının sürətlə artmasında böyük rol oynasa da, məktəblərin bağlanması hələ şərt deyil. Məktəblər bağlansa da uşaqların valideynləri işə, yaxud harasa qonaq getdikləri vaxt yayılmaya yol aça bilərlər. Dediyim kimi, qızılca hava-damcı yolu ilə yayılır. Məktəblər o vaxt bağlana bilər ki, əhalinin çox toplandığı digər məkanlar da bağlansın. Necə ki, COVID-19 dövründə qapanma olmuşdu. Digər tərəfdən, immuniteti yüksək olan uşaqlar həmin infeksiya xəstəliyinə yoluxa da bilər, yoluxmaya da bilər. Yoluxduğu halda, bu xəstəliyi asan keçirir.

***- İnsanlar niyə peyvənddən qaçır?***

- İnsanlar əvvəllər infeksion, virus xəstəlikləri ilə bağlı bu qədər məlumatlı deyildilər. COVID-19-un yayılması ərəfəsində ölüm hallarının çoxalması, sanki insanlarda infeksion xəstəliklərə qarşı bir qorxu hissi yaratdı. Həmin vaxtlarda əhali arasında peyvəndləmənin ziyanı ilə bağlı fikirlər yarandı və nəticədə, peyvəndləməyə qarşı qorxu baş qaldırdı. Əslində, həmin vaxt bu qorxunu yaşayanlara məlumat verilməliydi ki, peyvəndləmədən uzaqlaşmaq olmaz. Bilməli idilər ki, COVID-19-dan da təhlükəli digər infeksion və virus xəstəlikləri var. Ən azından, virus xəstəliklərinin yüngül keçirilməsi üçün peyvənd olunmaq şərtdir. Tanıdığımız insanlar var ki, COVID-19-a görə də peyvənd olunmadılar. Bilmirik, zaman nə göstərəcək. Şəxsən mən həkim olaraq COVID-19-un yayıldığı vaxtlar 3-4 dəfə vaksin olundum və hazırda da səhhətimdə heç bir problem yoxdur. Yəni özüm COVID-19 virusuna yoluxdum və vaksin olunduğum üçün yüngül keçirtdim. Düzdür, yaxınlarımızdan itkilərimiz də oldu, amma bir insanın həyatını digər insanla bağlayıb onu müzakirə etmək düz deyil. İnsanların orqanizmi fərqli olduğu üçün hər kəs xəstəliyi müxtəlif cür keçirə bilər. Hər bir xəstəliyin də müalicəsi hər kəsdə fərqli nəticə verə bilər. Bu baxımdan xəstəliyin ümumi fəsadlarından danışanda söylənilənləri hər kəsə şamil etməməliyik.

> "
> *Bütün virus xəstəliklərində tam müalicə olunmadıqda fəsadlar yaranır, fərdin sağlamlığı təhlükə altında olur*

***- Peyvənd etdirmək məcburi ola bilərmi?***

- Bütün poliklinikalarda sahə həkimləri, pediatrlar öz ərazilərində yaşayanları peyvəndləmə ilə bağlı düzgün şəkildə məlumatlandırmaqla peyvəndlənməyə cəlb edə bilərlər. Həkim olmayanların da bundan xəbəri var ki, qızılca tamamilə sağalmayanda müəyyən fəsadlarla iz buraxır. Bu, bütün infeksion xəstəliklərə aiddir. Bütün virus xəstəliklərində tam müalicə olunmadıqda fəsadlar yaranır, fərdin sağlamlığı təhlükə altında olur. Tam sağalmamaq gələcəkdə daha ağır viruslara yoluxmanı asanlaşdırır. Bir həkim olaraq valideynlərə tövsiyə edirəm ki, insanlar öz yaşadıqları ərazilərinə yaxın sahə poliklinikalarında uşaqlarını vaxtlı-vaxtında peyvənd etdirsinlər.

***- Türkəçarə müalicə effekt verə bilərmi? Bu istiqamətdə tövsiyələriniz...***

- Türkəçarə üsulları müalicə effekti verə bilər. Bu, xəstəliyin ağırlıq dərəcəsindən, xəstənin ümumi vəziyyətindən asılıdır. Əgər xəstəlik ağırlaşmış formadadırsa, dərmanlar, medikamantoz yanaşmalar, həkim nəzarəti, yataq rejimi əsasdır. Türkəçarə üsulları sadaladıqlarımla yanaşı, aparılmaqla effektiv ola bilər. İmmunitetin yüksəlməsi üçün əvvəlcədən meyvə şirələrindən, ot dəmləmələrindən profilaktik olaraq istifadəni tövsiyə edirəm.

***- Əvvəlki dövrlərdə yayılan qızılca ilə indiki qızılca arasında əlamət fərqləri varmı?***

- Heç bir əlamət fərqi yoxdur. Qeyd etdiyim kimi, bu, insan orqanizminin fərqli olmasından asılıdır. Orqanizm zəifdirsə, yüksək qızdırma, səpgilərin çox olması müşahidə ediləcək. Xəstəlikdən sonra kimdə hansı fəsadın baş verəcəyini detalları ilə demək olmur. Hər bir fəsad qaçılmazdır. Əvvəlki əlamətlə fərqi deyəndə, əvvəllər, ola bilsin, qızılcaya indiki qədər fikir verilməyib. Dədə-babadan eşitdiyimiz bir fikir var idi ki, qızılca ağır xəstəlikdir, onu diqqətlə, normal müalicə etmək lazımdır. Yəni göründüyü kimi, zamanında da indiki kimi qorxulu xəstəlik kimi tanınıb. Sadəcə olaraq, o dövrlərdə insanlarımız bugünkü kimi məlumatlı deyildilər.

Bu gün həkimlərimizin hər birinin üzərinə böyük məsuliyyət düşür. Hər bir həkim ixtisasından asılı olmayaraq, öhdəsinə düşənləri etməlidirlər. Tək infeksionistlərə deyil, bütün sahələrin həkimlərinə tövsiyə olunur ki, rastlaşdığı qızdırmalı, səpgili xəstəni infeksionistə yönləndirsin. Eyni zamanda bacardığımız profilaktik tədbirləri görməliyik. Müalicə əlamətlərə uyğun getməlidir. Qızılca virus xəstəliyi olduğu üçün həmin antibiotiki tətbiq etmək olmaz. Əgər uşağın qızdırması varsa, səpgi hələ görünməsə də ağırlaşma varsa, təcili xəstəliyə qarşı yüngül də olsa, hətta türkəçarələrlə belə tədbir görülməlidir.

Bütün bunlarla yanaşı, qızılca qorxusu yaratmamalıyıq. Xəstəlik var və olacaq, müalicə ilə də keçib-gedəcək. Müalicəyə üstünlük verilmədikdə, hərə öz bildiyi kimi "müalicə" edəcəksə, həkimə ən son anda üz tutacaqsa, ölüm halları da qaçılmaz olacaq.

✍ Tahirə Qafarlı

## Sosial

# Bu xəstəliyə iki dəfə yoluxmaq mümkün deyil

***Peyvənd olunan xəstələr qızılcaya yoluxsa belə, xəstəliyi yüngül keçirir. Bu barədə Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib. "Qızılcaya yoluxan şəxsin yenidən yoluxması, demək olar, mümkün deyil. Qızılca zamanı bakteriyalı fəsadlar ola bilərsə, onda təbii ki, antibiotik təyin edilir. Amma bu fəsadlar olmadan tövsiyə olunmur", - deyə o, bildirib. Təyyar Eyvazov bildirib ki, qızılca virusuna təmas olmadan belə əhalinin sıx olduğu məkanlarda yoluxma mümkündür. İnkubasiya dövrü minimal altı gündür. Xəstəlik dövründə öskürək özünü ilkin olaraq göstərir.***



Səpgilər qırmızı fonda ləkəlidir və üç gün davam edir. Səpgilər bitdikdən sonra xəstənin hərarəti düşür:

- Qızılca ağır infeksion xəstəlikdir və bir neçə fəsadla ağırlaşa bilər. Bunlar birinci növbədə, viral pnevmoniyadır. Lakin eyni ilə ikincili bakterial infeksiyanın qoşulmasından da qarışıq viral bakterial pnevmoniya inkişaf edə bilər. Tənəffüs yollarında zədələnmələrə, həmçinin larinqotraxeobronxitlər, bronxolitlər aiddir. Həzm traktının zədələnməsi diareya şəklində özünü göstərir. Bu zaman qastroenteritlər təsadüf edilir. Bəzi hallarda qaraciyərin iltihabı-hepatit və müsariqə limfa düyünlərinin zədələnməsi, hətta kəskin appendisit inkişaf edə bilər.

> "
> *A vitamini çatmayan şəxslərdə qızılca daha ağır keçir və xəstəlik fəsadlaşa bilər*

Uşaqlarda orta qulağın iltihabı daha çox rast gəlir və bakterialmənşəli olur. Ürək-damar sisteminin zədələnməsi kimi çox həssas hallarda miokarditlər rast gəlir. Sinir sisteminin zədələnməsi nadir də olsa baş verir. Buna ensefalitlər və s. aiddir. İnfeksionist qeyd edir ki, qızılca virusunun spesifik müalicəsi yoxdur, amma qoşulmuş ikincili infeksiyalarda, təbii ki, antibakterial terapiyadan istifadə olunaraq bu hallar müalicə olunur.

Onun sözlərinə görə, A vitamini çatmayan şəxslərdə qızılca daha ağır keçir və xəstəlik fəsadlaşa bilər. Bu, tədqiqatlar zamanı da sübut olunub. Təyyar Eyvazov qeyd edib ki, milli peyvənd təqvimində də A vitamininin verilməsi nəzərdə tutulub: "O cümlədən qızılcaya yoluxmuş və ağır keçirən xəstələrə A vitamininin təyini məqsədəuyğun sayılır. Təbii ki, bu zaman doza yaşa görə təyin olunur", - deyə əlavə edib.

"Peyvənd üçün müraciət edən uşaq son üç gündə qızılca xəstəsi ilə sıx təmasda olubsa və peyvənd göstərişi varsa, 72 saat ərzində vaksinasiya ola bilər", - Təyyar Eyvazov deyib. O, bir daha valideynlərə çağırış edib:

- Eyni zamanda, həkim məsləhəti kimi, bir çağırış olaraq valideynlərə üz tutmaq istərdim ki, övladlarının sağlamlığına son dərəcədə diqqətli olsunlar. Uşaqlarımızı qızılcadan qorunması, yoluxma hallarını qarşısının alınması məqsədilə mütləq olaraq 1 və 6 yaşlarında 2 dəfə peyvənd etdirsinlər.

Qeyd edim ki, müəyyən səbəblərdən peyvəndin birinci dozasını vaxtında almayan uşaqlar dərhal vaksinasiya olunmalıdırlar. Usaqlarımız altı yaşına çatdıqda isə peyvəndin ikinci dozası vurulmalıdır. Bir sıra səbəblərdən peyvəndin ikinci dozasını vaxtında almayan on yaşa qədər uşaqlar mütləq peyvəndin ikinci dozasını almalıdırlar. Bəzi hallarda isə peyvəndin hər iki dozasını vaxtında almayan on yaşa qədər uşaqlar var. Belə halda minimum dörd həftə intervalla peyvəndin birinci və ikinci dozası vurulmalıdır.Valideynlərin nəzərinə çatdırım ki, uşaqlarının vaksinasiyası üçün onların yaşayış yeri üzrə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət etsinlər", - deyə o, bildirib.

Qeyd edək ki, Səhiyyə Nazirliyinin məlumatına əsasən, son aylarda digər ölkələrdən gətirilmə hadisələrlə əlaqəli qızılcaya yoluxma halları Azərbaycanın müxtəlif regionlarında infeksiyanın yerli yayılmasına səbəb olub. Ölkə ərazisində qeydə alınmış qızılca hadisələri arasında bəzən risk qrupuna aid uşaqlarda ağırlaşmalar, yanaşı bakterial infeksiyaların inkişafı, gecikmiş müraciətlər və ya yanlış diaqnostika hallarına rast gəlinir. Uşaqların sağlamlığının qorunması və yoluxma hallarının qarşısının alınması məqsədil ilə ölkədə qüvvədə olan "Profilaktik peyvəndlər təqvimi"nə əsasən, bir və altı yaşlarında olan bütün uşaqlar iki dəfə qızılca, epidemik parotit və məxmərək infeksiyalarına qarşı vaksinasiya olunmalıdırlar.

✍ Sevinc



**■ "Oxford" Universitetinin alimləri vaksinasiya üçün yeni metod kəşf ediblər. "Oxford" Universitetinin alimi Darsi Dan Lavlis vaksin molekullarını zülaldan ibarət olan kiçik molekullarla qarışdıraraq ilkə imza atıb.**

Alim öncə siçanların üzərində bu təcrübəni sınaqdan keçirib. Belə ki, iynəyə ehtiyac olmadan əldə olunan maye öncə dərinin üzərində hopub qalsa da, daha sonra ultrasəs aparatı ilə dəriyə, bədənə daxil edilib. Nəticədə, bir dəqiqə ərzində maye siçanın dərisinə daxil edilib. Alim belə hesab edir ki, dəriyə daxil edilən bu vaksin müxtəlif viruslardan qorunmaq üçün immunitetin yaranmasına kifayət edir. Alim yaxın illərdə bu tədqiqatı daha da təkmilləşdirməyi hədəfləyib.



**■ Almaniya Ukraynanı sonsuza qədər dəstəkləyə bilməyəcək. Bunu Almaniyanın müdafiə naziri Boris Pistorius yerli "Zweites Deutsches Fernsehen" (ZDF) telekanalına müsahibəsində bildirib.**

Pistorius qeyd edib ki, ölkəsi ilə Ukrayna NATO Alyansı çərçivəsində müttəfiq deyil və bu səbəbdən Almaniyanın Ukraynadakı münaqişəyə müdaxilə etmək kimi bir öhdəliyi yoxdur. Buna baxmayaraq, Almaniya əlindən gələni edir və Ukraynanı dəstəkləyir.

O, həmçinin, əlavə edib ki, alman hərbi sənayesi Ukraynanı silah və sursatla lazımi templə təmin edə bilmir və yaranmış vəziyyətdə Ukraynanı sonsuza qədər dəstəkləmək mümkün deyil.



**■ Minalar və partlamamış hərbi sursatlarla ərazilərimizin çirklənməsinə beynəlxlaq ictimaiyyətin etinasız yanaşması, minalar səbəbindən bərpa və quruculuq işlərinin gecikməsi, insanlarımızın öz doğma yurdlarına qayıtmasının yubanması yaşamaq hüquqlarının pozulmasına səbəb olur.**

Bunu Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva "Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün sağlam ətraf mühit və minasız həyat" adlı Beynəlxalq Bakı Forumunda deyib.

O bildirib ki, bu gün dünyada 60-dan çox ölkə mina və partlamamış sursatlardan əziyyət çəkir. "Təəssüflə qeyd etməliyik ki, Azərbaycan bu siyahıda ilk sıralardadır.



**■ "Təklif edirəm ki, dekabrın 6-sı və ya bu ayın başqa gününü Qərbi azərbaycanlıların deportasiyası günü kimi təqvimdə dəyişiklik edək". Bunu Qərbi Azərbaycan İcmasının üzvü, Milli Məclisin deputatı Musa Quliyev parlamentdə "Keçmişdən gələcəyə çağırış: Qərbi Azərbaycana qayıdış fəlsəfəsinə gənclərin baxışı" mövzusunda keçirilən dinləmədə deyib.**

O qeyd edib ki, dinləmənin bugünkü günə salınması təsadüfi deyil. "Çünki məhz 1988-ci ilin 6 dekabrında Nüvədi kəndi istisna olmaqla, Qərbi Azərbaycanda azərbaycanlıların sonuncu deportasiyası başa çatdı. Bu gün də həmin deportasiyanın 35 ilidir.



**■ Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov 15-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahının 2-ci rəisi ordu generalı İrfan Özsərt ilə görüşüb.**

General-polkovnik Z.Həsənov Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın yüksək səviyyədə olduğunu xüsusi qeyd edərək bu istiqamətdə görülən işlərin bundan sonra da davam etdirilməsinin əhəmiyyətini vurğulayıb. Azərbaycana səfərindən məmnunluğunu ifadə edən ordu generalı İ.Özsərt göstərilən qonaqpərvərliyə və səmimi münasibətə, eləcə də hər iki qardaş ölkənin hərbçilərinin Bakıda növbəti görüşünün təşkilinə görə general-polkovnik Z.Həsənova minnətdarlığını bildirib.



**■ Azərbaycan ərazilərinin mina və partlayıcı sursatlarla çirklənmə səviyyəsinə görə dünya ölkələri arasında ilk sıralarda yer alır.**

Bunu Minatəmizləmə Agentliyinin İdarə heyətinin sədri Vüqar Süleymanov deyib: "İlkin hesablamalara görə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 1,5 milyona yaxın mina yerləşdirilib və 9 min kv.km-ə yaxın ərazi minalarla çirklənib. 2020-ci ilin noyabr ayından bu günə qədər aparılan minatəmizləmə əməliyyatları nəticəsində ümumilikdə 114 400.9 hektar ərazi minalardan və müharibənin partlayıcı qalıqlarından təmizlənib. Ümumilikdə 110 347 mina və müharibənin digər partlayıcı qalıqları, o cümlədən 30 795 piyada əleyhinə mina, 18 582 tank əleyhinə mina və 60 970 partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib".

# İqtisadi təhlükəsizlik yastığı

**Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları bu il dekabr ayının 1-nə 10 milyard 615.9 milyon ABŞ dollarına çatıb. Bu göstərici son bir ayda 1 faiz artım deməkdir. Bankın ehtiyatları son 1 ildə isə 33.2 faiz və ya 2 milyard 646.7 milyon dollar artıb. Belə ki, 2022-ci ilin eyni dövründə AMB-nin valyuta ehtiyatları 7 milyard 969.2 milyon dollar təşkil edib. Bəs, görəsən, AMB-nin valyuta ehtiyatlarının artımına hansı amillər təsir göstərib? Qeyd edək ki, Mərkəzi Bankın valyuta ehtiyatı 2014-cü ilin iyulun sonunda ən yüksək həddə - 15,1934 milyard dollar olub.**



## Maliyyə

Lakin 2014-cü ilin ikinci yarısında neft qiymətlərinin kəskin şəkildə aşağı düşməsi və uzun müddət qiymətlərin artmaması Azərbaycanın xarici valyuta gəlirlərini xeyli azaltdı. Bununla bərabər Rusiyada yaranan ajiotaj ölkəmizdən böyük məbləğdə xarici valyutanın çıxışına səbəb oldu. Hər iki amilin təsiri ilə ölkəmizdə xarici valyutaya olan tələbi ödəmək üçün AMB-nin valyuta ehtiyatlarından istifadə olundu və bunun nəticəsində ehtiyatlar sürətlə azalmağa başladı. Ehtiyatların həcmi 2014-cü ilin sonunda 13,758 milyard dollara, 2015-ci ilin sonunda 5,017 milyard dollara, 2016-cı ildə 3,974 milyard dollara qədər geriləddi.

Yaranmış vəziyyətdə AMB məcbur olub dollar/manat məzənnəsində dəyişiklik etdi və manat dollara nəzərən 2,14 dəfə ucuzlaşdırıldı. Həm bu tədbir, həm neftin qiymətlərinin bir qədər artması, həm də sərt fiskal və monetar sahədə atılan sərt tədbirlər hesabına cari əməliyyatlarda tarazlığın yaranması AMB-nin valyuta ehtiyatlarının tədricən artmasına imkan verdi. Qeyd edilən dəyişikliklərdən sonra AMB-nin valyuta ehtiyatları 2017-ci ilin sonunda 5,335 milyard dollara, 2018-ci ildə 5,626 milyard dollara, 2019-cu ildə 6,26 milyard dollara, 2020-ci ildə 6,37 milyard dollara, 2021-ci ildə 7,075 milyard dollara yüksəldi. Ümumiyyətlə, 2017-2021-ci illərdə AMB ehtiyatlarını 3,1 milyard dollar, yəni 78 faiz artırmağa nail oldu.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən professor Əli Əlirzayev bildirib ki, 2022 və 2023-cü illərdə xarici iqtisadi vəziyyət Azərbaycan üçün daha əlverişli olduğundan AMB-nin valyuta ehtiyatları daha sürətlə artıb:** “Neftin qiymətinin bahalaşması bu sektorda fəaliyyət göstərən şirkətlərin yerli istehlak və büdcə qarşısında vergi öhdəliklərini yerinə yetirməsi məqsədilə manata ehtiyacını artırıb. Bu isə həmin şirkətlər tərəfindən bazara valyuta təklifinin həcmini artıran faktordur.



Əli Əlirzayev,
professor

Bazara isə bir neçə mənbədən valyuta təklif olunur, Dövlət Neft Fondu, iri neft şirkətləri və iri ixracatçılar və turizm sektorunda fəaliyyət göstərən şirkətlər tərəfindən. Görünən odur ki, manatla ifadədə öhdəliyi artan xarici neft şirkətlər bazara daha çox valyuta təklif edir. Amma eyni zamanda, qeyri-neft adı altında ixrac olunan məhsulların həcmində də artımlar görürük. Qeyri-neft adı altında təqdim edilən məhsulun həcmi 3 milyard dollara çatıb. Bunun özü də dolayısı ilə bazara əlavə valyutanın daxil olmasına səbəb olur. Bu da öz növbəsində Mərkəzi Banka sterilizasiya imkanı yaradır. Eyni zamanda, ehtiyatların artmasına həmçinin ehtiyatların idarə edilməsindən əldə olunana gəlir də təsir edir. Yəni, mövcud ehtiyatlar daha diqqətlə və qənaətlə idarə olunur. Bu da özlüyündə əlavə ehtiyat deməkdir”.

> “Mərkəzi Bank uçot dərəcəsini artırmaqla ölkədə iqtisadi aktivliyi artırmağa çalışır
>
> Qeyri-neft adı altında təqdim edilən məhsulun həcmi 3 milyard dollara çatıb

■ **Mövzu ilə bağlı maliyyə və bank məsələləri üzrə ekspert Əkrəm Həsənov isə deyib ki, AMB-nin valyuta ehtiyatları əsasən iki səbəbdən artır:** “Bu Mərkəzi Bankın ölkədə az valyuta satması və daha çox valyuta alması ilə bağlıdır. Daxildə vətəndaşlar və sahibkarların xarici valyutaya ehtiyacın az, milli valyutaya isə çox olması fonunda hamı manatı banklara satır. Banklar da sonradan onu Mərkəzi Banka satır.

Mərkəzi Bank da öz növbəsində milli valyuta verib, əvəzində xarici valyuta əldə edir. Mərkəzi Bank uçot dərəcəsini artırmaqla ölkədə iqtisadi aktivliyi artırmağa çalışır. Nəticədə milli valyutaya da tələbat artır. Digər tərəfdən, MB əlindəki xarici valyutanı elə-belə saxlamır. Onu xaricdə hansısa qiymətli kağızlara qoyur. Belədə oradan da gəlir əldə edir”.

Yeri gəlmişkən, Azərbaycan Mərkəzi Bankı (AMB) da rəsmi valyuta ehtiyatlarının son 8 ildə ən pik həddə yüksəlməsini təsdiqləyib. Qurum bunun səbəbini açıqlayaraq bəyan edib ki, son 2 ildə profisitli tədiyə balansı və de-dollarlaşma proseslərinin davam etdiyi şəraitdə Mərkəzi Bankda keçirilən valyuta hərraclarının mütləq əksəriyyətində təklif tələbi üstələyib. Bu səbəbdən valyuta bazarında tarazlığın təmin olunması üçün fiskal əməliyyatlarla əlaqədar son aylar ərzində Mərkəzi Bank valyuta bazarına alışyönlü müdaxilə edib. Əvvəlki illərdə olduğu kimi alışyönlü müdaxilələr Mərkəzi Bankın valyuta ehtiyatlarının artması ilə nəticələnir: ”Ümumilikdə alışyönlü valyuta müdaxilələri nəticəsində pul bazasının izafi genişlənməsi pul siyasəti alətləri ilə məhdudlaşdırılır. Bu məqsədlə Mərkəzi Bank son bir ildə özünün sterilizasiya əməliyyatlarının əhəmiyyətli şəkildə aktivləşdirib və yeni alətlərin tətbiqinə başlayıb”.



Əkrəm Həsənov,
bank məsələləri üzrə ekspert

✍ Sevinc

## Konfrans

**Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə“Məişət zorakılığının qarşısının alınması: imkanlar və perspektivlər” mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransda Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və dövlət orqanlarının vəzifəli şəxsləri ilə yanaşı, BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisinin rəhbəri, BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru, Avropa Şurası Gender bərabərliyi şöbəsinin rəhbəri, Koreya Respublikası Parlamentinin üzvü və Parlamentin Gender bərabərliyi və Ailə Komitəsinin sədri, Almaniya Schlesviq-Holsteyn torpağı üzrə Ədliyyə və Sağlamlıq Nazirliyi Probasiya Xidmətləri Departamentinin rəhbəri, Belarusiya, Böyük Britaniya və ABŞ Universitetlərinin alimləri iştirak edib.**

# Ailədaxili məsələ, yoxsa cinayət?

### Müraciətlər son dörd ildə 3 dəfə artıb

■ **Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Dövlət Komitəsinə məişət zorakılığı ilə bağlı daxil olan müraciətlər son dörd ildə 3 dəfə artıb. 2020-də 178, 2023-ün 11 ayında 550 müraciət daxil olmuşdu.**

O qeyd edib ki, vaxtında və operativ yardım xidmətlərinin göstərilməsi zərər çəkmiş şəxslərin dövlət orqanlarına və digər xidmət subyektlərinə etimadını artırıb. “Zorakılığın səbəb və nəticələrinin, təkrar baş vermə riskinin aradan qaldırılması, törədənlərin cəzalandırılması istiqamətində Daxili İşlər Nazirliyi tərəfindən tədbirlər gücləndirilib, polis əməkdaşları təlimatlandırılıb. AR Baş Prokurorluğunda Cinayət təqibindən kənar icraatlar İdarəsi yaradılmış, həmçinin intihar hallarının qarşısının alınması üzrə işçi qrupu fəaliyyətə başlayıb”, - deyə sədr əlavə edib. B.Muradovanın sözlərinə görə, Milli Fəaliyyət Planının digər istiqaməti məişət zorakılığından zərər çəkmiş şəxslərin yardım mərkəzləri və sığınacaqlarla təmin olunmasıdır. O qeyd edib ki, hazırda zərər çəkmiş şəxslər üçün doqquz yardım mərkəzi (onlardan səkkizi qeyri-dövlət mərkəzidir) mövcuddur, onlardan beşi həmçinin sığınacaq xidməti göstərir. “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin “Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzi şöbəsi” həmçinin qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası üzrə komissiya yaradılıb”,- deyə sədr bildirib

### Pandemiya zamanı şagirdlərə qarşı şiddət faktları

■ **Məişət zorakılığının qarşısının alınması üçün preventiv tədbirlər olduqca vacibdir. Lakin bunun məktəb tədris planlarında ayrıca fənn kimi salınması doğru deyil. Bu barədə elm və təhsil naziri Emin Əmrullayev beynəlxalq konfransda çıxışı zamanı deyib.**

Nazir qeyd edib ki, çox aşağı yaşlardan fənlərin məzmununda zorakılığın formaları ilə bağlı maarifləndirmə aparılmalıdır. “Biz başa düşməliyik ki, bu mexaniki proses deyil, insan dəyərlərindən irəli gələn davranışdır. Koronavirus dövründə şagirdlər evdə qalan zaman onlara qarşı şiddət və zorakılıq faktlarını təsbit etmişik. Bu barədə müvafiq qurumlara məlumat vermişik və əməkdaşlığımız davam edir”, - deyə o bildirib. E.Əmrullayev əlavə edib ki, məişət zorakılığı, qadınlara qarşı zorakılıqla mübarizə bir qurumun, təşkilatın işi deyil. Burada ciddi koordinasiya olmalıdır. “O təhsil sistemləri güclüdür ki, cəmiyyətdə qadının rolu yüksəkdir, analar ali təhsillidir. Bu gün azyaşlı qızların təhsildə olması, hüquqlarını bilməsi, gələcəkdə güclü qadın kimi yetişməsi Azərbaycan cəmiyyətinə töhfə verən amillərdəndir”, - deyə o vurğulayıb.

### 154 zorakılığa məruz qalan şəxsə xidmət göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin “Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzi şöbəsi”ndə ötən dövrdə 154 zorakılığa məruz qalan şəxsə xidmət göstərilib. Onların 100-ü uşaqlardır.**

Bunu isə, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. O qeyd edib ki, məişət zorakılığından əziyyət çəkənlər ən çox ailədaxili münaqişələrdən əziyyət çəkən şəxslərdir. “Azyaşlı qızların təhsildən kənarlaşdırılması bu sahədə ən böyük riskdir. Təhsil bu sahədə ən güclü silah olmalıdır”, - deyə nazir bildirib. “Qadınlara və uşaqlara qarşı zorakılıq hallarının aradan qaldırılmasında Azərbaycan hökumətinə dəstək verməyə hazırıq”. Bunu isə, BMT-nin Azərbaycan Respublikasındakı rezident-əlaqələndiricisi Vladanka Andreeva deyib. O, çıxışı zamanı evlilik yaşının həm kişi, həm də qadınlar üçün 18 yaş olmasını dəstəkləyib. Vladanka Andreeva həmçinin qeyd edib ki, “uşaq evliliyi”nə qarşı mübarizə məsələsi həll də aktual olaraq qalır.



### Azyaşlı qızlar ərə veriləndə...

■ **Milli Məclisin Ailə, qadın və uşaq problemləri komitəsinin sədri, millət vəkili Hicran Hüseynova çıxışında bildirib ki, bu gün ölkəmizdə qadınları selektiv abortlara məcbur edirlər.** Bu, Azərbaycan cəmiyyətinə yaraşmayan haldır. Onun sözlərinə görə, bu məsələdə Azərbaycan bir sıra ölkələri qabaqlayıb. “Bu, bizə yaraşan haldır? Bizim məqsədimiz budur? Selektiv abortların qarşısının alınması üçün qanunlar qəbul edilib, cərimələr müəyyən edilib. Nəticələr isə göstərir ki, işləmir. Deməli, müdaxilələr var. Cəzalandırma tədbirləri gücləndirilməlidir. İnsanlar arasında ictimai qınaq formalaşmalıdır. Azyaşlı qızların ərə verilməsində polisin gəlməsini, Komitənin müdaxiləsini gözləyirik. İnsanlar qarşılarında görülən hadisəyə niyə reaksiya vermirlər? Gözlərini yumurlar ki, ailədaxili məsələdir, qarışa bilməzlər. Lakin gələcəkdə özləri də belə hallarla qarşılaşa bilərlər. İctimai qınaq güclənsə, vəziyyət dəyişə bilər”, - deyə o əlavə edib.

✍ Sevinc



# Füzulinin bu kəndləri qazlaşdırılır

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) “Azəriqaz” İstehsalat Birliyi tərəfindən işğaldan azad olunan ərazilərdə infrastrukturun bərpası və yenidən qurulması istiqamətində hərtərəfli işlər görülür.**

Hafta.az-ın “Azəriqaz”a istinadən verdiyi məlumata görə, görülən işlərin davamı olaraq Füzuli rayonunun Dövlətyarlı və Dədəli kəndlərinin təbii qazla təmin edilməsi üçün daşıyıcı qaz kəmərlərinin tikintisi işləri aparılır. Dövlətyarlı kəndinin daşıyıcı qaz kəmərinin tikintisi üçün ümumi uzunluğu 4 050 metrədək müxtəlif diametrli polad və polietilen borulardan istifadə olunur. Diametri 325 mm olan xüsusi izolyasiya olunmuş polad boru kəməri Quruçay çayının aşağı hissəsindən keçiriləcək, digər daşıyıcı kəmərə birləşdiriləcək.

Dədəli kəndinə də daşıyıcı qaz kəmərinin çəkilişi işləri icra olunur. İlk olaraq Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən kəmərin keçəcəyi dəhliz boyunca ərazilər minalardan təmizlənib, daha sonra qaz kəmərinin çəkilişi işlərinə başlanılıb. Kəndə daşıyıcı qaz kəmərinin çəkilişi üçün ümumi uzunluğu 14 500 metrədək müxtəlif diametrli polietilen borulardan istifadə olunub ki, artıq işlərin yaxın günlərdə tamamilə yekunlaşacağı nəzərdə tutulub.

# “Bakcell”in sponsorluğu ilə “İnnovasiya Sammit”i keçirilib

®




**Ölkənin ən böyük özəl operatoru olan Bakcell “InMerge İnnovasiya Sammiti”nin “Sürət və Telekom partnyoru” olaraq bir daha innovasiyalara öz dəstəyini göstərib.**

30 noyabr - 1 dekabr 2023-cü il tarixlərini əhatə edən regionun ən böyük sammiti Bakı Konqres Mərkəzində “PAŞA Holding”in təşkilatçılığı, Bakcell şirkətinin aparıcı sponsorluğu ilə ilk günü gerıdə qoyub. İnnovasiya və yüksək texnoloji yeniliklərə sarsılmaz dəstəyi ilə tanınan Bakcell artıq 3-cü ildir ki, innovasiya tədbirlərinə sponsor olaraq öz dinamik rolunu qoruyur.

Sammitin məqsədi texnologiya sahəsində aparıcı liderləri, şirkətləri, eləcə də innovasiya yönümlü startapları bir araya toplamaq, regionda innovasiya ekosisteminin formalaşmasına dəstək göstərməkdir. Tədbirin ilk günü telekommunikasiya vertikalında Bakcell-in Baş icraçı direktoru Klaus Müller öz bilik və təcrübəsini auditoriya ilə bölüşüb, iştirakçılarla faydalı fikir mübadiləsi aparıb.

“Telekommunikasiya sektorunda daim innovativ həllərlə fərqlənən bir şirkət kimi bu tədbirin “Sürət və Telekom partnyoru” olmaqdan qürur duyuruq. Ötən müddət ərzində ən müasir səs texnologiyası olan VoLTE-ni, yenilənmiş Bakcell tətbiqini abunəçilərin ixtiyarına verərək, telekommunikasiya sektorunda ciddi addımlar atmışıq. Uğurlarımızın nəticəsi olaraq 2023-cü ildə Ookla® şirkəti tərəfindən “Speedtest” mükafatına layiq görülərək “Azərbaycanın ən sürətli operatoru” adını almağa layiq görülmüşük. Bakcell olaraq qarşıdakı dövrdə ən qabaqcıl texnologiyaların ölkəyə gətirilməsində genişmiqyaslı fəaliyyətimizi daha da gücləndirəcəyik.” - deyə Klaus Müller bildirib. Ölkənin dörd bir yanında “Ölkənin ən sürətlisi” şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti “NEQSOL Holding”in tərkibinə daxildir.

# Soyuq havanın dərimizdə yaratdığı fəsadlar

***Niyə soyuq mövsümdə ayaqlarda dəri çox quruyur, problemli sahələri nəmləndirmək və qidalandırmaq üçün nə etmək olar? Bu sual indi bir çoxunu düşündürür. Hafta.az xarici mediaya istinadən bildirir ki, ekspertlər bununla bağlı bir sıra tövsiyələr veriblər. Kosmetoloji texnoloq-ekspert İrina Pavlenkonun sözlərinə görə, ayaq dərisinin vəziyyətinə bir çox amil təsir edə bilər. Mütəxəssis quruluğun əsas səbəbləri arasında dar ayaqqabı geyinmək və yanlıştərkibli duş gellərindən istifadəni xüsusi qeyd edir. Həmçinin, İrina Pavlenkonun fikrincə, istilik və yaş da bu məsələdə rol oynaya bilər:***



## Məsləhət

"Qapalı yerdəki quru hava dərinin balansına təsir edir və dərinin infeksiyaya qarşı mübarizə qabiliyyətini azaldır. Bundan əlavə, bir çox insanlar mənzillərində istilik sistemini yandırır, ayaqyalın gəzirlər və nəticədə ayaqlarının quru dərisindən şikayətlənirlər. Hormonal dəyişikliklər də dərinin incəlməsinə, elastikliyin azalmasına və ayaqları dəstəkləyən yağ yastıqcıqlarının itirilməsinə səbəb olur. Bu, dərinin qurumasına, soyulmasına və kallusların yaranmasına səbəb olur".

Pavlenko diqqəti bəzi hallarda çox quru dərinin şəkərli diabet (xəstəlik böyük miqdarda maye itkisi ilə nəticələnir) və qalxanabənzər vəzlə bağlı problemləri göstərə biləcəyinə diqqət çəkib: "Ayaqlardakı quru, qabıqlı dəri qalxanabənzər vəzinin qeyri-kafi fəaliyyətini göstərə bilər. (hipotiroidizm). Bu, mədə-bağırsaq pozğunluqları, psixi sağlamlıq kimi bir sıra problemlərə səbəb ola bilər".

■ **Endokrinoloq, diyetoloq Natalya Firsova da qalxanabənzər vəzin funksiyasının azalmasının ayaqlarda dərinin qurumasının və daban çatlarının ümumi səbəblərindən biri olduğunu təsdiqləyib.** Bununla belə, həkim vurğulayıb ki, bədəndə ayaqların dərisinin qurumasına səbəb olan digər ümumi pozğunluqlar da var: ödün qeyri-kafi axını və yağda həll olunan vitaminlərin (A, E, D) çatışmazlığı.

■ **Kosmetoloq Yelena Yutsmyuts bildirib ki, ayaqların dərisində quruluq və çatlar orqanizmdə qlikozaminoqlikanların miqdarı azaldıqda və A vitamini çatışmazlığı olduqda yaranır: "Ya biz az istehlak edirik, ya da bədənimiz onu qəbul etmir. Hətta beta-karotenoidlərin analizi də var".**

Həmçinin, dermatoloqun fikrincə, çatların səbəbi yod çatışmazlığı ola bilər: "Gördüyümüz ilk şey hipoksiyadır - yəni ayaqların toxumalarına qan tədarükünün pozulması. Soyuq mövsümdə bu simptom xüsusilə nəzərə çarpır: dabanlar daha çox quruyur.

Ancaq xatırlamaq lazımdır ki, yod preparatları həkim resepti olmadan qəbul edilmir. Ona görə də yodla vitamin kompleksləri içmək, tərkibində yod olan duz yemək olar".

■ **Ekspert Yuliya Markova bildirir ki, ayaqların qurumasının ən mühüm problemlərindən biri dəri hüceyrələrində və onun dərialtı təbəqələrində nəmlik çatışmazlığıdır:**

"Ayaq dərisinin quruması və soyulması hüceyrələrdə və hüceyrələrarası zonada nəm çatışmazlığının əlamətidir. Və onun bərpasına doğru öz fəaliyyətinizi yönəltməlisiniz. Yalnız orqanizmdə lazımi su-duz balansını bərpa etməklə problem üzərində effektiv işdən danışmaq olar".

■ **Dermatoloq Alexandra Filevanın sözlərinə görə, ayaqların quruması və çatlayan dabanlar göbələk infeksiyasına səbəb ola bilər:** "Bu halda xəstəlik bir sıra kifayət qədər xarakterik əlavə əlamətlərə malikdir: qaşınma, qızartı, dəri rənginin dəyişməsi və xoşagəlməz qoxu. Göbələk infeksiyasının ən bariz təzahürləri, adətən, ayaq barmaqları arasında olur.

Yuxarıda sadalanan əlamətlər yoxdursa, ayaqların quruması və hətta çatlaması digər səbəblərdən, o cümlədən qeyri-kafi nəmləndirmə və ya hipotermidən qaynaqlana bilər. Narahatlığın səbəbinin müayinə və laboratoriya müayinələrindən sonra (adətən dərinin təsirlənmiş nahiyəsindən sıyrılaraq) göbələk infeksiyası olub-olmadığını dəqiq müəyyən edə bilər". Həkim vurğulayıb ki, quru dəri, xüsusən də çatlamış dəri sağlam və nəmlənmiş dəri ilə müqayisədə infeksiyalardan daha az qorunur: "Bu o deməkdir ki, göbələk və digər xəstəliklərin (məsələn, viral ziyilərin) əmələ gəlmə riski xeyli yüksəkdir". Mütəxəssislər ayaqlarınızın dərisini nəmləndirmək və qidalandırmaq üçün kosmetik vasitələrdən istifadə etməyi məsləhət görürlər.

■ **Texnoloq İrina Pavlenkonun sözlərinə görə, bu, qidalandırıcı krem və ya tərkibində xüsusi komponentlər olan digər kosmetik vasitələr ola bilər:** "Məsələn, karbamidtərkibli ayaq kremləri. Bu məhsul uzun müddət nəmləndirir və ayaqların dərisini effektiv şəkildə yumşaldır, qarğıdalıların və çatların görünüşünün qarşısını alır. Parafin kremləri evdə ayaqlar üçün SPA prosedurlarını həyata keçirmək üçün əla vasitədir. Ayaqlarınızın, təmiz dərisinə parafin kremi çəkin, dabanlarınızı polietilenlə sarın, corab geyinin və 30 dəqiqə gəzin. Dabanlarınız nəmlənmiş və hamar hiss edəcək". Mütəxəssis, həmçinin qan dövranını yaxşılaşdırmaq üçün rahat ayaqqabı geyinməyi, yüksəkkeyfiyyətli şəxsi gigiyena vasitələrindən istifadə etməyi, ayda bir dəfə pedikür üçün salona getməyi və daha çox hərəkət etməyi tövsiyə edib. Yelena Yutsmyuts qeyd edir ki, soyuq mövsümdə ayaqların dərisinə qulluqda D vitamini olan krem mütləq faydalı olacaq və bu, xüsusilə çatlamış dəriyə lazım olan quruluğu aradan qaldırmağa kömək edəcək: "Dərin çatların nəticələri ciddi ola bilər - infeksiya ora daxil olur və yoluxucu ekzema ilə nəticələnir. Buna görə də, qulluq üçün kosmetik məhsullardan istifadə etmək, həmçinin ayaq vannaları etmək lazımdır - qışda maqnezium duzu ilə daha yaxşıdır. Bu prosedur, ən azı, iki gündə bir dəfə aparılmalıdır. Hamam zamanı ayaqlarınızı pomza daşı və ya xüsusi dırnaq faylı ilə ovuşdura, sonra kremlə (tercihen D, A vitamini ilə) yağlaya bilərsiniz. Karbamid ehtiva edən yaxşı qidalandırıcı krem ??də problemləri həll etməyə kömək edəcəkdir.

İstənilən aptekdə belə kosmetik vasitələr var". Dermatoloq xəbərdarlıq edir ki, ayaqlarınızın dərisini yeniləmək üçün corab şəklində Çin ayaq maskaları almamalısınız: "Bu, sağlamlığa zərər verə biləcək çox sərt məhsuldur. Bəzi hallarda dəridə ciddi zədələnmələr baş verə bilər". Həkimin sözlərinə görə, mütəxəssislərin tövsiyə etdiyi düzgün qidalanma və qulluq vasitələri ayaqlarda quru dəri problemini həll etməyə kömək edəcək. Ancaq bədəndə pozğunluqlar varsa, həkimə müraciət etmək lazımdır.

■ **Dermatovenerolog Yelena Yutsmyuts bildirir ki, profilaktika və müalicə üçün vitamin əlavələri təyin edilir və ödün yaxşı axması üçün səhərlər isti su içmək mütləqdir: "Bu, yağda həll olunan vitaminlərin yaxşı mənimsənilməsi üçün lazımdır".**

Yelena Yutsmyutsin sözlərinə görə, quru dəri ilə mübarizə apararkən pəhrizinizə yodla zəngin məhsulları əlavə etmək faydalıdır:

"Dəniz kələmi və feyxoa uyğun gəlir. Hamilə qadınlar üçün ən yaxşı əlavələr yod, omeqa-3 və yağda həll olunan vitaminləri ehtiva edən yaxşı komplekslər var. Quru ayaqlardan qurtulmaq üçün ilk növbədə bu lazımdır". Ayaqlarındakı quru dəri və çatlamış dabanlar göbələk xəstəliklərinin təzahürü ilə əlaqələndirilirsə, dermatoloq Alexandra Filevanın sözlərinə görə, uzunmüddətli müalicə tələb olunacaq.

*✍ Ləman Əliyeva*

## "Nar"dan "Dinlət" xidməti ilə tərzini paylaş

**Hər zaman müştəriyönümlülük və sərfəli qiymət strategiyasına sadiq qalan "Nar" öz abunəçiləri üçün yenilənmiş "Dinlət" xidmətini təqdim edir.**

Bir zamanların ən çox istifadə edilən xidmətlərindən biri olan "Dinlət" yeni funksiyalarla təkmilləşdirilib. İndi "Nar" abunəçiləri ayda cəmi 1.8 AZN ödəniş etməklə "Dinlət" parçasını istənilən sayda aktivləşdirə biləcək. Xidmətə qoşulmaq üçün www.dinlet.az platformasındakı parçalardan istədiyinizi seçib *185*DinlətKodu#YES yığmaq kifayətdir. Qeyd edək ki, "Dinlət" xidmətinə qoşularaq sizə zəng edənlərə standart zəng səsi əvəzinə sevdiyiniz musiqi parçalarını, fərqli melodiyaları, əyləncəli replikaları və s. dinlədə biləcəksiniz. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir.

"Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.




## HƏFTƏ REYTİNQ

### Həftənin XATİRƏSİ



Rusiya Prezidenti Vladimir Putin uşaqlıq xatirələri haqqında danışıb. O bu fikirləri uşaq və gənclər hərəkatı olan "Birinci Hərəkat"ın müşahidə şurasının iclasında bildirib: "Anam məni küncə qoydu, bunu xatırlayıram. Bir müddət ətrafda gəzdi, hədə-qorxu ilə baxdı, bağışlanma diləyəcəyimi soruşdu. Hər şey onun məni öpməyə başlaması və məni bu küncdən çəkməsi ilə bitdi", - deyə Putin qeyd edib.

### Həftənin QORXAQLARI



Rusiyanın XİN rəhbəri Sergey Lavrov ABŞ dövlət katibi Entoni Blinken və Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi Cozep Borreli qorxaq adlandırıb. Onun sözlərinə görə, Blinken və Borrellin Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən ATƏT-in Nazirlər Şurasının iclasını tez tərk etmələri onların dialoqdan qorxduğunu nümayiş etdirir.

### Həftənin QAZANCI



Amerikalı məşhur müğənni Beyonse prodüsseri olduğu musiqili filmindən yüksək gəlir əldə edib. Ekran işi müğənniyə bir həftədə 21 milyon dollar gəlir qazandırıb. Belə ki, "Renaissance: A Film by Beyonce 2023" adlı film 94 ölkədə nümayiş etdirilib. Qeyd edək ki, film müğənninin qastrol səfərinə həsr olunub.

### Həftənin MÜKAFATI



Tanınmış müğənni Reynmen 2020-ci ildə "Altın Kelebek" mərasimində aldığı mükafatı zibilqabına atıb. Bu barədə o, sosial şəbəkə hesabında paylaşım edib. Belə ki, bu ilin qalibləri sırasında olmayan ifaçı qazandığı bir çox mükafatları zibil qutusuna atdığı həmin anları instaqram hesabında paylaşıb və gülüş emojisi əlavə edib. Reynmenin sosial mediada sürətlə yayılan videosuna bir çox istifadəçi tərəfindən sərt reaksiya gəlib.

### Həftənin ƏN YAXŞISI



İtaliya A seriyasında noyabrın ən yaxşı baş məşqçisi məlum olub. Bu ada "Yuventus"un baş məşqçisi Massimiliano Allegri layiq görülüb. Belə ki, "Yuventus" hazırda A seriyasında 33 xalla 2-ci pillədə qərarlaşıb. Qeyd edək ki, komanda "Fiorentina"nı və "Kalyari"ni məğlub edib, "İnter"lə isə heç-heçə qalıb.

### Həftənin İDMANÇISI



"İnter Mayami"nin və Argentina milli futbol komandasının hücumçusu Lionel Messi "Time" jurnalı tərəfindən "İlin idmançısı" seçilib. Bu barədə nəşrin saytında məlumat verilib. Qeyd edək ki, 2022-ci ilin sonunda forvard milli komandanın Qətərdə keçirilən Dünya Kubokunu qazanmasına kömək edib və turnirin ən yaxşı oyunçusu olub. Bu yay o, "Inter Mayami" ilə müqavilə imzalayıb və Liqa Kubokunu qazanıb. Bundan əlavə, argentinalı 2023-cü ildə PSJ ilə Fransa çempionu olub.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Peşəkar skuter sürücüsü Vincent Kudrna Kaliforniya ştatının San Dieqo şəhərindəki skeytparkda məşq edir**

## "

## İqtisadi təhlükəsizlik yastığı

Əli Əlirzayev, professor

Mərkəzi Bank uçot dərəcəsini artırmaqla ölkədə iqtisadi aktivliyi artırmağa çalışır.

▸▸ Səh. 7

## STATİSTİKA



■ **2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycanın qeyri-neft məhsullarının ixracının dəyəri 3 033,68 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 10,5% çoxdur.**

Cari ilin noyabr ayında qeyri-neft məhsullarının ixracı 321,85 milyon dollar təşkil edib ki, bu da əvvəlki ilin noyabr ayı ilə müqayisədə 6,2% çoxdur. Xatırladaq ki, 2022-ci ildə Azərbaycanın qeyri-neft ixracı illik müqayisədə 12,-3% artaraq 3 047,67 milyon ABŞ dollarına bərabər olub.



▸▸ Səh. 7

## Ailədaxili məsələ, yoxsa cinayət?